Altıncı çağırış

# AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİ İCLASLARININ

# PROTOKOLLARI VƏ STENOQRAMLARI

On beşinci sessiya
Yaz

60-cı cild

1 fevral 2024-cü il

Milli Məclisin nəşri
Bakı – 2024

Milli Məclis Aparatının
Redaksiya və nəşr işləri şöbəsində
hazırlanmışdır

# ALTINCI ÇAĞIRIŞ
# AZƏRBAYCAN RESPUBLİKASI
# MİLLİ MƏCLİSİNİN
# XV SESSİYASI İCLASININ

# PROTOKOLU № 158

*Milli Məclisin iclas salonu.*
*1 fevral 2024-cü il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 108 deputatı iştirak etmişdir.**

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.03 dəq.) |
| İştirak edir | 103 |
| Yetərsay | 83 |

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. Azərbaycan Respublikası Milli Məclisinin 2024-cü il yaz sessiyasının qanunvericilik işləri planı haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərar layihəsi.
2. Azərbaycan Respublikası Milli Məclisi İntizam komissiyasının yaradılması haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərar layihəsi.
3. Azərbaycan Respublikası Milli Məclisi Hesablayıcı komissiyasının yaradılması haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərar layihəsi.
4. "Zeytun yağı və süfrə zeytunlarına dair 2015-ci il tarixli Beynəlxalq Saziş"ə qoşulmaq haqqında Azərbaycan

Respublikası qanununun layihəsi.

5. “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

6. “Avtomobil yolları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

7. “Qida təhlükəsizliyi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

8. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində və “Məişət zorakılığının qarşısının alınması haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

9. “Məişət zorakılığının qarşısının alınması haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

10. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, “Vəkillər və vəkillik fəaliyyəti haqqında” və “Təhsil haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**Gündəlik haqqında.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Cavanşir Feyziyev, Əli Hüseynli, Sevil Mikayılova, Soltan Məmmədov, Şahin İsmayılov, Kamran Bayramov, Elşən Musayev, Anar İsgəndərov, Bəhruz Məhərrəmov, Aqil Abbas, Fəzail Ağamalı

**Təklif:** Gündəlik qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.12 dəq.) |
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 108 |

Nəticə: Qəbul edildi

**1. Azərbaycan Respublikası Milli Məclisinin 2024-cü il yaz sessiyasının qanunvericilik işləri planı haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərar layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Məsimli, Siyavuş Novruzov, Əziz Ələkbərov, Fəzail Ağamalı, Bəxtiyar Əliyev

**Təklif:** Qərar qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.02 dəq.) |
| Lehinə | 105 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs verMədi | 1 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

**2. Azərbaycan Respublikası Milli Məclisi İntizam komissiyasının yaradılması haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərar layihəsi.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Qərar qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.03 dəq.) |
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 107 |
| Nəticə: Qəbul edildi | |

**3. Azərbaycan Respublikası Milli Məclisi Hesablayıcı komissiyasının yaradılması haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərar layihəsi.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Qərar qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.04 dəq.) |
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

**4. “Zeytun yağı və süfrə zeytunlarına dair 2015-ci il tarixli Beynəlxalq Saziş”ə qoşulmaq haqqında Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Rzayev, Səməd Seyidov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.07 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 104 |

Nəticə: Qəbul edildi

**5. “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Ziyafət Əsgərov, Elnur Allahverdiyev, Sabir Rüstəmxanlı, Siyavuş Novruzov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.22 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 2 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |

Nəticə: Qəbul edildi

**6. "Avtomobil yolları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Mirkişili, Fəzail Ağamalı, Hikmət Məmmədov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.34 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

**7. "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Rzayev, Vüqar Bayramov, Azay Quliyev, Fəzail Ağamalı, Sabir Rüstəmxanlı, Tahir Kərimli

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.02 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**8. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində və "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli, Hicran Hüseynova, Bəhruz Məhərrəmov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.05 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

**9. "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Hicran Hüseynova, Bəhruz Məhərrəmov, Əli Hüseynli, Elşad Mirbəşir oğlu, Aqil Abbas

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.11 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 1 |
| İştirak edir | 91 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1–3-cü maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.25 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**Təklif:** 4–6-cı maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.25 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

**Təklif:** 7–9-cu maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.25 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**Təklif:** 10-cu və 11-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.26 dəq.) |
|---|---|
| Lehinə | 99 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.26 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |

Nəticə: Qəbul edildi

**10. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Vəkillər və vəkillik fəaliyyəti haqqında" və "Təhsil haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli, Bəxtiyar Əliyev, Hicran Hüseynova, Aydın Hüseynov, Etibar Əliyev

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.11 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1–3-cü maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.27 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**Təklif:** 4-cü və 5-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.27 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.27 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri** **Sahibə Qafarova**

# *MİLLİ MƏCLİSİN İCLASI*

*1 fevral 2024-cü il. Saat 11.*

*Azərbaycan Respublikası Milli Məclisinin sədri*
***Sahibə Qafarova** sədrlik edir*

**Sədrlik edən.** Xoş gördük, hörmətli deputatlar, hörmətli media nümayəndələri. Hörmətli həmkarlar, Milli Məclisin yaz sessiyasını açıq elan edirəm.

*(Azərbaycan Respublikasının Dövlət Himni səslənir.)*

**Sədrlik edən.** Hörmətli deputatlar, mən yaz sessiyasının başlanması münasibəti ilə hamını təbrik edirəm, sessiya dövründə fəaliyyətimizin səmərəli olmasını arzulayıram. İndi isə, hörmətli həmkarlar, xahiş edirəm, qeydiyyatdan keçək.

| **Qeydiyyat** | (saat 11.03 dəq.) |
|---|---|
| İştirak edir | 103 |
| Yetərsay | 83 |

Çox sağ olun. Yetərsay var, biz iclasa başlaya bilərik.

Hörmətli həmkarlar! Bildiyiniz kimi, Azərbaycanın

Avropa Şurası Parlament Assambleyasındakı nümayəndə heyətinin təşkilat ilə əməkdaşlığının və onun fəaliyyətində iştirakının dayandırılması qərara alınmışdır. Yəqin ki, siz nümayəndə heyətimizin bəyanatı və AŞPA üzvü olan dövlətlərin parlament sədrlərinə mənim göndərdiyim məktubla tanış olmusunuz. Aydın məsələdir ki, bu qərar Azərbaycan nümayəndə heyətinin səlahiyyətlərini mübahisə predmetinə çevirmək üçün ölkəmizə qarşı irəli sürülmüş əsassız və qondarma ittihamlara cavab olaraq qəbul edilmişdir.

Avropa Şurasının Parlament Assambleyasında Azərbaycana qarşı haqsızlıq və qeyri-obyektivliyin, qərəz və ikili standartların açıq təzahürü olan siyasi aksiyanın həqiqi səbəbləri, düşünürəm ki, hamıya məlumdur. Məsələ burasındadır ki, Avropada müəyyən qüvvələr 44 günlük Vətən müharibəsi və antiterror tədbirləri nəticəsində Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpası ilə heç cür barışa bilmirlər. Burada narahatlıq doğuran məqam odur ki, Cənubi Qafqazda yaranmış yeni reallığın bəziləri tərəfindən qəbul edilməməsi və erməni revanşizminə rəvac verilməsi bölgədə möhkəm və uzunmüddətli sülh və sabitlik yaradılması üçün göstərilən səylərə ciddi təhlükə törədir. Təəssüf ki, demokratik dəyərləri dəstəklədiyini bəyan edən Avropa Şurasının Parlament Assambleyası məhdud siyasi maraqlarını təmin etməyə çalışan qüvvələrin əlində alətə çevrildiyini nümayiş etdirir. Parlament Assambleyasının və bütövlükdə, Avropa Şurasının nüfuzuna zərbə vuran son hadisə onu da göstərdi ki, indiki dövrdə bu təşkilatı onun bütün üzvlərinin rəyinə hörmət mühitinin hökm sürdüyü həqiqi dialoq və əməkdaşlıq platforması adlandırmaq çətindir.

Hörmətli həmkarlar! Bunu da nəzərə çatdırmaq istərdim ki, demokratiyaya, insan hüquqlarının qorunmasına

və qanunun aliliyinə əsaslanan cəmiyyət quruculuğu Azərbaycan xalqının şüurlu seçimidir və dövlətimizin milli maraqlarına əsaslanır. Ölkədə demokratik institutların qurulması və sərbəst fəaliyyət göstərməsi, vətəndaş cəmiyyətinin əsas tərkib hissələrinin yaradılması, digər amillər Azərbaycan dövlətinin demokratik inkişaf yolu ilə irəliyə getmək əzmini və iradəsini nümayiş etdirir.

Hörmətli deputatlar! Ötən sessiyanın və ilin uğurlu nəticələri barədə, xatırlayırsınız ki, mən sizə məlumat vermişdim. Ona görə bir də bunu təkrarlamayacağam. Sadəcə, qeyd edim ki, Milli Məclisin fəaliyyəti Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin uzaqgörən daxili və xarici siyasətinin qanunvericilik səviyyəsində dəstəklənməsinə yönəlmişdir.

Hörmətli həmkarlar! Sessiyalar arasındakı dövrdə Milli Məclisdə bir sıra mühüm görüşlər keçirilmiş və danışıqlar aparılmışdır. Mən sizə bu barədə qısa bir məlumat vermək istəyərdim.

Küveyt Ümmət Məclisinin Azərbaycan parlamenti ilə əlaqələr üzrə dostluq qrupunun rəhbəri Məhəmməd Haif Əl-Muteyri, Özbəkistan Ali Məclisinin Qanunvericilik Palatası sədrinin birinci müavini Akmal Saidov və onların başçılıq etdikləri nümayəndə heyətləri ilə görüşlərdə parlamentlərarası əməkdaşlığın dərinləşdirilməsi ilə bağlı məsələlər nəzərdən keçirilmişdir.

Söhbətlər zamanı mən hazırda dünyada mövcud olan ikili standartların bir sıra ölkələrə qarşı ədalətsiz mövqeyin sərgilənməsinə gətirib çıxardığını qeyd etdim. Azərbaycan öz torpaqlarını 30 illik işğaldan azad etdikdən sonra bəzi Avropa ölkələrinin və beynəlxalq təşkilatların dövlətimizə qarşı qərəzli münasibətindən də danışdım.

Hörmətli həmkarlar! Türkiyə Respublikasının keçmiş

milli müdafiə naziri, Türkiyə Böyük Millət Məclisi Milli müdafiə komitəsinin sədri Hulusi Akar və başçılıq etdiyi nümayəndə heyəti Bakıya səfər etmişdir. Görüşdə iki qardaş ölkə arasında bütün sahələrdə əməkdaşlığın əhəmiyyətindən danışıldı. Şuşa Bəyannaməsinin ikitərəfli münasibətlərdə yeni hədəf və istiqamətləri müəyyən etdiyi bildirildi. Azərbaycan–Türkiyə müttəfiqlik münasibətlərinin parlament səviyyəsində də həyata keçirilməsinin vacibliyi qeyd edildi. Həmçinin digər mövzular ətrafında fikir mübadiləsi aparıldı.

Hörmətli həmkarlar! Bu günlər Parlamentlərarası İttifaqın baş katibi Martin Çunqonq ölkəmizdə səfərdədir. Məlumat üçün bildirim ki, Parlamentlərarası İttifaq dünyanın ən böyük parlament təşkilatıdır, 180 milli parlamenti və 15 assosiativ üzv parlamenti öz sıralarında birləşdirir. Onu da qeyd edim ki, ötən il Milli Məclisin nümayəndə heyətinin 5 üzvü qurumun bir sıra komitələrinin bürolarına və forumlarına, həmçinin idarə heyətlərinə üzv seçilmişdir. Birinci dəfə idi ki, Milli Məclisdən bu qədər deputat həmin təşkilatın müxtəlif qurumlarında müxtəlif vəzifələrə seçilmişdilər.

Təşkilatın baş katibi ilə dünən səmərəli görüş keçirdik. Aparılan söhbət zamanı Milli Məclis ilə qurum arasında ikitərəfli münasibətlərin səviyyəsindən məmnunluq ifadə edildi, qarşılıqlı əməkdaşlığın daha da dərinləşdirilməsi yolları da müzakirə edildi. Dünən cənab Çunqonq Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri, Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının prezidenti cənab Muxtar Babayev ilə görüşmüşdür.

Bu gün möhtərəm cənab Prezident cənab Çunqonqu qəbul etmişdir. Həmçinin cənab Çunqonq Azərbaycan

Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və İnsan hüquqları üzrə müvəkkil Səbinə Əliyeva ilə də görüşməlidirlər. Qeyd edim ki, Parlamentlərarası İttifaqın baş katibi cənab Çunqonq sabah Ağdam şəhərinə səfər edəcəkdir.

Hörmətli həmkarlar, yaz sessiyasında bizi gərgin və maraqlı iş gözləyir. Sessiyanın qanunvericilik işləri planı hazırlanıb və bu gün müzakirə ediləcək. Bu sessiyada biz qanun layihələrini müzakirə və qəbul etməklə yanaşı, Konstitusiyanın tələbinə uyğun olaraq, bildiyiniz kimi, Nazirlər Kabinetinin hesabatını da dinləyəcəyik. Bundan əlavə, Milli Məclisin iclaslarından birində 2023-cü ilin dövlət büdcəsinin icrası haqqında məsələ müzakirəyə təqdim ediləcək. Sessiyada Hesablama Palatasının, İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun, İnsan hüquqları üzrə müvəkkilin (ombudsmanın) və bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən müvafiq qurumun illik hesabatı, məlumatı və məruzələri də dinləniləcək.

Milli Məclisin beynəlxalq əlaqələrini inkişaf etdirmək üçün lazımi tədbirlər görüləcək. Dövlətimizin milli maraqlarının qorunması naminə parlament diplomatiyasının bütün imkanlarından istifadə ediləcək.

Müxtəlif nümayəndə heyətləri tərəfindən bir sıra xarici səfərlər həyata keçiriləcək. Xarici ölkələrin parlament sədrləri və nümayəndə heyətləri isə Bakıya gələcəklər.

Hörmətli deputatlar, mən əminəm ki, Milli Məclisin yaz sessiyası yüksək səviyyədə keçəcək və sessiyada sizin hamınıza bir daha uğurlar arzulayıram.

Hörmətli həmkarlar, iclasın gündəliyi sizə paylanıb. Mən xahiş edirəm, gündəliyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.12 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs verмədi | 2 |
| İştirak edir | 108 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, gündəlik qəbul edildi.

İndi isə, hörmətli həmkarlar, həmişə olduğu kimi, bizim yarım saatımız var. 10 nəfər çıxış eləyə biləcək. Xahiş edirəm, ya gündəliklə bağlı, ya da gündəmdə olan məsələlərlə bağlı kim çıxış etmək istəyirsə, buyursun, yazılsın. Cavanşir Feyziyev. Buyurun.

**C.Feyziyev**. Çox sağ olun. Hörmətli sədr, hörmətli həmkarlarım. 2020-ci ilin Vətən müharibəsindən və 2023-cü ilin antiterror tədbirlərindən sonra gözləmək olardı ki, 30 ildən çox müddət ərzində Cənubi Qafqaz bölgəsini iflic etmiş yorucu bir münaqişə artıq tarixə qovuşub. Lakin son 3 ildə nə beynəlxalq təşkilatlardan, nə də Avropa institutlarından bölgədə sülhə xidmət edəcək hər hansı bir addımın şahidi olmadıq. Əksinə, Fransa və Almaniyanın Ermənistanla Azərbaycan arasında münasibətlərin tənzimlənməsi prosesinə müdaxiləsi nəticəsində tərəflər arasında aparılan danışıqlar dalana dirəndi. Əslində, bölgədə sülh yaratmağa iddialı olan güc mərkəzləri sülh yaranmasının qarşısını almış oldu. Ardınca sülh danışıqlarını pozmaq vəzifəsini Avropa Parlamenti və AŞPA öz üzərinə götürdü. Qış sessiyasının ilk iclasında nümayəndə heyətimizə qarşı hazırlanmış təxribat bəzi Avropa dövlətlərinin, ilk növbədə Fransanın cənubi Qafqazda sülhə mane olmaq iddiasından əl çəkmədiyini, bu dəfə də AŞPA pərdəsi

altında öz riyakarlığını davam etdirdiyini göstərir. AŞPA iclasında yaranmış böhranlı vəziyyətdə nümayəndə heyətimizin assambleyanın işində iştirak etməkdən imtina etməsini ən düzgün qərar hesab edirəm. Bu addımı atmaqla nümayəndə heyətimiz AŞPA-nın bölgədə gedən proseslərə zərərli müdaxilə cəhdlərinin qarşısını nisbətən almış oldu. Lakin AŞPA-da niyyətlərini həyata keçirə bilməyən ermənipərəst qüvvələr indi estafeti ayrı-ayrı dövlətlərə ötürür və ölkəmizə qarşı növbəti təzyiq kampaniyaları planlaşdırırlar.

Bu günlərdə Niderland Parlamentində Azərbaycan–Ermənistan münasibətlərini müzakirəyə çıxaran deputatlar da guya, Azərbaycanın Ermənistanı işğal edəcəyi barədə cəfəng fikirlər səsləndiriblər. Niderland Krallığının xarici işlər naziri Bruins Slot isə yaxın günlərdə Bakıya və İrəvana səfər edəcəyini, Azərbaycan hökuməti ilə qaldırılan məsələlər haqqında müzakirələr aparacağını bildirib. Xarici İşlər Nazirliyimizin bu səfəri təxirə salmasını alqışlayıram və hesab edirəm ki, Azərbaycanda və bütövlükdə, Cənubi Qafqazda gedən proseslərlə bağlı kənar müdaxilələrin hər zaman qarşısı alınmalı və Azərbaycan–Ermənistan münasibətlərinin tənzimlənməsi, əsasən, ikitərəfli əsasda, yalnız bölgə dövlətlərinin iştirakı ilə aparılmalıdır. Hər hansı müdaxilə cəhdlərinə qarşı Azərbaycan hökuməti də özünün cavab tədbirlərini hazırlamalıdır. Bu barədə Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi tərəfindən verilmiş bəyanatda kifayət qədər rasional təkliflər var. Mən təklif edərdim ki, hökumət bu təklifləri bir daha nəzərdən keçirsin və Azərbaycanın daxili işlərinə qarışmağa cəhd edən güclərə, qüvvələrə və dövlətlərə qarşı lazımi tədbirlər görülsün. Diqqətinizə görə minnətdaram.

*Azərbaycan Respublikası Milli Məclisi sədrinin birinci müavini **Əli Hüseynli** sədrlik edir*

**Sədrlik edən.** Sağ olun. Sevil Mikayılova. Buyurun.

**S.Mikayılova**. Təşəkkür edirəm. Hörmətli Əli müəllim, dəyərli millət vəkilləri və media nümayəndələri. Təəssüf ki, Avropanın bəzi dairələrində son zamanlar Azərbaycan və Ermənistan arasında normallaşma prosesinin dinamikası narahatlıq doğurur. Biz bir sıra dövlətlərin parlamentləri, eləcə də xarici siyasət idarələri tərəfindən Azərbaycana qarşı qərəzli bəyanatların səsləndirilməsini görürük. Niderland Parlamentinin Xarici əlaqələr komitəsinin iclasında Azərbaycan Ermənistan arasında münasibətlərin müzakirəsi zamanı dövlətimizə qarşı yenə də əsassız ittihamlar səsləndirilmişdir. Ermənistanın təəssübkeşliyi fonunda Azərbaycan tərəfi qınanılıb. Niderlandlı həmkarlarımızın diqqətinə çatdırmaq istəyirik ki, bu cür gedişlər, əslində, ikitərəfli münasibətləri zədələyir, gələcək əməkdaşlığımızı isə sual altına qoyur. Məhz bu cür məsuliyyətsiz bəyanatlara görə Niderland xarici işlər naziri xanım Bruins Slotun ölkəmizə səfəri təxirə salınmışdır. Azərbaycan tərəfi səfər zamanı Azərbaycan–Ermənistan normallaşma prosesinin və ya Azərbaycanın daxili məsələlərinin deyil, yalnız ikitərəfli münasibətləri müzakirə etmək niyyətinin olduğunu qarşı tərəfə bildirib. Əgər onlar, həqiqətən, Azərbaycan və Ermənistan arasında davamlı sülhün əldə olunmasını istəyirlərsə, o zaman qərəzli bəyanatlar verməyi dayandırmalı, ən azı hazırda pozitiv məcrada gedən prosesə zərbə vurmamalıdırlar. Azərbaycan tərəfi dəfələrcə bəyan edib ki, heç bir dövlətin ərazisinə iddia etmir, müharibə başlatmaq niyyəti də yoxdur. Elə isə

Cənubi Qafqazda yeni müharibənin olacağı ilə bağlı iddialar haradan qaynaqlanır? Avropalı həmkarlarımızda bu narahatlığı kim oyadıb?

Həm Azərbaycan, həm də Ermənistan sülh prosesinə alternativ görmürlər. Son zamanlar Ermənistan tərəfindən də müəyyən pozitiv siqnallar var. Görünür ki, hadisələrin bu cür inkişafı, bu dairələri narazı salıb və onlar iftiralarla Azərbaycana hücuma keçmək xəttini tutublar. Bildiririk ki, müharibə layihəsini Cənubi Qafqaza proyeksiya etmək istəyi ilk növbədə təhlükəlidir və bu istəyin fəsadları kifayət qədər ağır olacaq. Azərbaycan və Avropa Birliyi arasında münasibətlərə xələl gətirmək üçün çalışan bu qüvvələr hətta uzağa gedib Azərbaycana sanksiyalar tətbiq olunmasına çağırış edirlər. Bir daha bildirək ki, münasibətlərimiz bərabərhüquqludur və hər hansı tərəfin digərinə diktəsi qəbuledilməzdir. Azərbaycan beynəlxalq öhdəliklərinə sadiqdir. Əldə olunmuş razılaşmalardan çıxmaq tərəflər üçün məsuliyyət yaradır. Bu cür seçilmiş ritorika isə qəbuledilməzdir. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Soltan Məmmədov. Buyurun.

**S.Məmmədov**. Hörmətli Əli müəllim, hörmətli deputatlar və media nümayəndələri. Bildiyiniz kimi, Niderland Parlamentinin İkinci Palatasının Xarici əlaqələr komitəsinin yanvarın 18-də keçirilmiş iclasında Azərbaycanla bağlı qərəzli və tamamilə qəbuledilməz fikirlər səsləndirilib. Niderlandlı həmkarlarımızın Cənubi Qafqazdakı reallıqları təhrif edən mülahizələri bizim ölkəmizə qarşı qeyri-obyektiv münasibətin hələ də davam etdiyini göstərir. İkili standartların bir çox digər Avropa ölkələrində olduğu kimi, Niderlandda da xarici siyasətin əsas prinsiplərindən biri olması təəssüf doğurur. Təəssüf doğuran daha bir fakt da ondan ibarətdir ki, Niderlandın xarici işlər naziri Hanke

Bruins Slot deputatların suallarına cavab verərkən absurd ittihamlarla razılaşdığını dolayısı ilə ifadə edib. Nazir Avropa İttifaqının Azərbaycana qarşı sanksiyalar tətbiq etməyə hazır olduğunu da bildirib.

Azərbaycanın guya Ermənistana qarşı ərazi iddiasında olduğu, yeni müharibəyə hazırlaşdığı barədə niderlandlı həmkarlarımızın əsassız mülahizələri ölkəmizə qarşı qərəzin daha bir nümunəsidir. Cənab Prezident müharibənin bitdiyini, ərazi bütövlüyümüzün və suverenliyimizin bərpasından sonra yeni inkişaf strategiyasına kökləndiyimizi dəfələrcə bəyan edib. Eyni zamanda, işğaldan azad edilmiş ərazilərə, eləcə də Ermənistanla həmsərhəd bölgələrə yatırılan milyardlarca vəsait bizim məhz sülhə fokuslandığımızı göstərən əsas amildir. Bunu bütün dünya da, o cümlədən Niderland da yaxşı bilir. Azərbaycan müharibədən sonra irəli sürülən sülh gündəliyinin müəllifidir. Biz Cənubi Qafqazda əməkdaşlığa, birgə yaşayışa əsaslanan rifahı təşviq edən aparıcı ölkəyik. Azərbaycana qarşı etnik təmizləmə iddialarının əsassız olduğunu isə Qarabağa səfər edən BMT missiyasının hesabatları təsdiq edir. Əgər Niderlandda həmkarlarımız Ermənistandan qovulmuş azərbaycanlıların öz yaşayış yerlərinə qayıtmasını ərazi iddiası kimi qəbul edirlərsə, bu, insan hüquq və azadlıqları prizmasından qiymətləndirilməli olan bir məsələdir.

Bu gün biz dünya ictimaiyyətindən, o cümlədən Avropa ölkələrinin parlanmentlərindən Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması təşəbbüslərinə dəstək gözləyirik. Lakin bir çox ölkələr və beynəlxalq təşkilatlar tamamilə əks mövqedən çıxış edirlər. Ermənistanın sürətlə silahlandırılması, parlamentlər və beynəlxalq qurumlar çərçivəsində bizə qarşı qəbul olunan qətnamələr region xalqlarının maraqlarına və sülh gündəliyinə xidmət

etmir. Yaşadığımız coğrafiyanın indiki mürəkkəb dövrdə sülhə və sabitliyə həmişə olduğundan daha böyük ehtiyacı var. Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini bərpa etməsi, müstəqil siyasət yürütməsindən narahat olmağa əsas yoxdur. Əksinə, müstəqil siyasət yürütmək imkanı mübahisələrin, anlaşılmazlıqların, üçüncü tərəflərin müdaxiləsi olmadan sadə həll yollarını tapmaq üçün etibarlı zəmin yaradır. Diqqətinizə görə təşəkkür edirəm.

*Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik edir*

**Sədrlik edən.** Çox sağ olun. Şahin İsmayılov. Buyurun.

**Ş.İsmayılov**. Çox sağ olun. Hörmətli xanım sədr, əziz həmkarlar, mən də həmkarlarım kimi Niderland Parlamentində məlum müzakirələrlə bağlı fikir söyləmək istəyirəm. Əslində, həmkarlarım kifayət qədər maraqlı məqamlara toxundular. Məlum müzakirələrdən sonra müəyyən araşdırmalar apardım, görüm ki, Qarabağ problemi mövzu olan dövrdə Niderland Parlamentində Azərbaycana dəstəklə bağlı hər hansı müzakirələr olubmu? Əfsuslar olsun ki, hər hansı bir ciddi müzakirələrin olmadığı üzə çıxdı. Bəs, görəsən, nə baş verir? Bu Niderlandın timsalında, Fransanın timsalında Azərbaycana qarşı səslənən bu bəyanatlar nə ilə bağlıdır? Əslində, Qarabağ məsələsinin həll olunması Azərbaycanın təkcə ərazi bütövlüyünün bərpası deyil, həm də Azərbaycana dost və dost olmayan ölkələri də sanki bir növ bizə çıxmasını göstərdi. Azərbaycanla təhdid dilində danışmaq, Azərbaycana qarşı hər hansı bir sanksiyaların hazırlanmasına çağırışlar bölgə üçün yaxşı heç nə vəd etmir. Əslində, bölgə üçün kifayət qədər yaxşı

imkanlar yaranmışdır. Niderland Parlamentinin üzvləri, eyni zamanda, buna oxşar fikirlər səsləndirən digər parlamentlərdəki həmkarlarımız yaxşı olardı ki, bölgədə bundan sonra yaranmış yeni şəraitə uyğun fikirlər səsləndirərdilər. Çünki bölgə heç vaxt olmadığı qədər sülhə və yeni inkişaf mərhələsinə daxil olmağa yaxındır. Bu cür çağırışlar, yaxud da Azərbaycana qarşı hər hansı bir sanksiyaların səsləndirilməsinə dair fikirlər bölgə üçün heç də yaxşı gələcək vəd etmir. Həmçinin Niderland Parlamentində səslənən bu fikirlər bizi təəccübləndirmədi, çünki 44 günlük Vətən müharibəsi dövründə Azərbaycana qarşı onlarca çağırış və sənəd qəbul olunmuşdu. Bölgə yeni inkişaf mərhələsinə daxil olmağa hazırdır. Azərbaycanla hər hansı bir təhdid dilində danışmaq, Azərbaycana qarşı hər hansı bir sanksiya çağırışları etmək Azərbaycan üçün qəbulolunmazdır, Azərbaycan hər zaman ikitərəfli, bərabərhüquqlu münasibətlərə açıqdır, Azərbaycan sülhə və inkişafa töhfə verəcək çağırışlara hazırdır. Biz bunu ölkə Prezidentinin onlarca çıxışında görmüşük. Biz sülhə və inkişafa dair fikirlərə daim dəstək veririk. Lakin Azərbaycanla təhdid dilində danışmağa heç vaxt yol verilməyəcəkdir. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Kamran Bayramov. Buyurun.

**K.Bayramov**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar, Azərbaycan öz xarici siyasət xəttinə uyğun olaraq, xarici dövlətlərlə və beynəlxalq təşkilatlarla əməkdaşlığını qurarkən onun bərabərlik, qarşılıqlı hörmət və qarşılıqlı fayda əsasında reallaşdırılmasına çalışıb. Lakin bəzi təşkilatlar Azərbaycanın xoş niyyətlərindən suiistifadə edərək öz çirkin məqsədləri üçün ölkəmizə qarşı yalan və iftira dolu genişmiqyaslı qarayaxma kampaniyasını aparırlar. Onlardan biri də Avropa Şurası və onun

Parlament Assambleyasıdır. Əgər xatirinizdədirsə, 2001-ci ildə böyük həvəslə və nikbinlik hissi ilə Avropa Şurasına üzv olduq. Bu üzvlükdən böyük gözləntilərimiz var idi. Faydalı və səmərəli əməkdaşlıq gözləyirdik. Bu təşkilatın Qarabağ probleminin həll olunmasına, ərazi bütövlüyümüzün bərpasına, qaçqın və məcburi köçkün düşmüş soydaşlarımızın pozulmuş hüquqlarının bərpasına dəstək verəcəyinə inanırdıq. O zaman üzərimizə götürdüyümüz bütün öhdəlikləri bu illər ərzində vicdanla yerinə yetirdik. Ölüm cəzasını ləğv etdik, əksər Avropa konvensiyalarına qoşulduq, milli qanunvericiliyimizi həmin sənədlərin müddəalarına uyğunlaşdırdıq, seçki qanunvericiliyini təkmilləşdirdik, Avropa standartlarına uyğun məhkəmə hüquq islahatları həyata keçirtdik, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin yurisdiksiyasını tanıdıq, Venesiya Komissiyası ilə səmərəli əməkdaşlıq qurduq və sair. Bəs bu siyasi riyakarlıq yuvası bizə nə verdi? Nəyi bəxş etdi? Ədalətsizlik bəxş etdi, qərəzli münasibət sərgilədi, anti-Azərbaycan mövqeyini üzə çıxartdı, Makronların, Şoltsların, Borellərin, Şvabların qərəzli rəylərini əsas tutdu, illər boyu Azərbaycanla bağlı qəbul etdiyi bütün qərarları daxildəki ermənipərəst qüvvələrin diktəsi ilə siyasiləşdirdi. Siyasi sirkə bənzəyən bu qurum ölkəmizin daxili işlərinə qarışmağa, diktə, şantaj və təhdid dilində danışmağa, Azərbaycanı Avropa dövlətlərinin və xalqlarının düşməninə çevirməyə cəhdlər göstərdi. Amma nə qədər çalışsa da, alınmadı. Düşünürəm ki, bu cür vəziyyətdə nümayəndə heyətimiz yeganə düzgün qərar qəbul etdi. Bu məsələdə heç bir güzəşt edilə bilməzdi. Ya Azərbaycanın digər üzvlərlə yanaşı, bərabər hüquqları olmalı idi, bərabər münasibət bəslənməli idi, ya da bu qərəz, ədalətsizlik və xainlik məkanından uzaqlaşmalı idik. Heç bir şübhə

yoxdur ki, bu qərar Azərbaycan üçün deyil, Avropa Şurası və onun qurumları üçün ciddi fəsadlarla nəticələnəcək, statusuna və nüfuzuna birmənalı olaraq xələl gətirəcək, Cənubi Qafqazdakı mövqelərini sıfıra endirəcək. Hesab edirəm ki, Avropa Şurasının bu cür münasibətinə və ikilistandartlar siyasətinə mütənasib cavab verilməlidir. Bu qurumla münasibətlərə və birgə layihələrə yenidən baxılmalıdır. Bu psevdoqurum nə itirdiyini anlamalıdır. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Elşən Musayev. Buyurun.

**E.Musayev**. Təşəkkür edirəm, xanım sədr. Mən də hər kəsi salamlayıram və hörmətli həmkarlarıma yeni sessiyada uğurlar arzulayıram. Bu gün mən də Avropa Şurası Parlament Assambleyası haqqında danışacağam. O təşkilat haqqında ki, özüm də təxminən 4 il müddət boyunca nümayəndə heyətlərinin üzvü kimi təmsil olunmuşam. Onların mətbəxinə, xislətinə yaxından bələdəm və bu gün Azərbaycana qarşı sərgiləmiş olduqları qərəzli münasibətə görə barələrində fikir bildirmək istəyirəm. AŞPA bu gün olduqca xaotik durumdadır. O, idarə etmir, kənardan idarə olunur. Yeliseydənmi, Ağ Evdənmi? Bunu belə müəyyələşdirmək olduqca qəlizdir. Bu gün AŞPA bayaq da burada adıçəkilən Frank Şvab kimi deputatların timsalında və təbii ki, bəzi istisnalarla riyakarlar klubuna çevrilib. Bu klubun öz “dress kod”u var, yazılmamış qaydaları var. Bu gün özünə hörmət edən dövlətlərin artıq qəbul etmədiyi, edə bilmədiyi mühiti var, nimdaş aurası var, çəkilməz qoxusu var. AŞPA bu gün aşpaz funksiyasını yerinə yetirir və o aşpazların qazanında ədalətdən başqa hər şey qaynayır. Sual oluna bilər ki, bəs 23 ildir, bu təşkilat bizə nəyə lazım idi? Biz həmin 23 ildə heç vaxt bu məkandan ədalət platforması kimi istifadə etməmişik. Çünki orada

ədalət yoxdur. Biz oradan yalnız meydan platforması kimi istifadə etmişik: sözümüzü demək üçün, bəzən müdafiə olunmaq üçün, Azərbaycanın haqqını, həqiqətlərini dünyaya, Avropa ailəsinə çatdırmaq üçün.

Bir fikir də irəli sürülür ki, yəqin, Qərb və ya Amerika Avropa üzərindən bizə təsir etmək istəyir, seçim məcburiyyəti yaratmaq istəyir. 100 dəfə demişik, bu da 101-ci olsun. Bizimlə heç kim diktə dilində danışa bilməz. Bizimlə heç kim hədə jarqonu ilə davrana bilməz. Bizim siyasətimizi özümüzdən başqa heç kim müəyyənləşdirə bilməz. Biz müstəqil siyasət yürüdürük. Biz özümüzdən yanayıq, biz milli siyasət yürüdürük və deyim ki, elə milli olmağımızın da, Zəfərimizin də, qələbəmizin də, suverenliyimizi bərpa etməyimizin də bu gün bədəlini ödəyirik. O milliliyə bundan sonra kimsə kölgə salmaq istəsə, nəinki cavabı, elə birbaşa, sözün əsl mənasında, ağzının payı veriləcək. Üzərimizə dil uzadanların dili isə elə uzandığı yerdən də kəsiləcək. Buna heç kimin şübhəsi olmasın. Diqqətinizə görə minnətdaram.

**Sədrlik edən.** Sağ olun. Anar İsgəndərov. Buyurun.

**A.İsgəndərov.** Hörmətli sədr, mən də yaz sessiyasının başlanması münasibəti ilə hamınızı təbrik edirəm. Təqribən 100 il bundan əvvəl 1919-cu ildə Paris Sülh Konfransı öz işinə başladı. Azərbaycan da həmin konfransda iştirak etmək istədi. Ermənistan iki nümayəndə ilə qəbul olundu. Azərbaycan 6 ay mübarizədən sonra, nəhayət, Paris şəhərinə çatdı. Bu, mayın 28-i idi. ABŞ Prezidenti Vudro Vilson Azərbaycan nümayəndə heyətini qəbul etdi. Ermənistana deyilirdi ki, sizi qalib dövlət bilirik. Az qala Birinci Dünya müharibəsinin qalibisiniz və hər cür şərait var. Azərbaycana nə deyirdilər? Karti Kaxeti İmeretiya məlum, Georgiya, Hayastan dünəndən məlum, bəs bu Azər-

baycan haradan çıxdı? Amma biz geri çəkilmədik. Vudro Vilsonun bir təklifi də oldu: İtaliyanın himayəsini, yəni qoltuğunu qəbul edin. Onu da qəbul etmədik. 1920-ci il yanvarın 11-də Paris Sülh Konfransının Ali Şurası bizi tanıdı, Ermənistanı deyil. Amma indi hansı hal yaranıb? İndi də Azərbaycan 2001-ci ildən Avropa ailəsinin üzvüdür. Avropa ailəsinin dövlətlərindən ikisi haqqında danışmaq istəyirəm. Əslində, Avropa tarixinin hər bir dövlətinə münasibət bildirəndə qeyd edim ki, ilk dəfə Afrikaya, Cənubi Amerikaya odlu silahdan atəş açan avropalı olub. Yəni insan qanını tökən o olub, bir nəfərin deyil, min nəfərin deyil, milyonlarca insanların. Onda sual olunur: Dünənə qədər qan tökən bir dövlət, onun siyasiləri Azərbaycanın haqqını qəbul edə bilərlərmi? Onlara necə Azərbaycan lazımdır? Zəif, kövrək, nə deyiriksə, "baş üstə" desin. Amma indi 1990-cı illər deyil. 2020-ci ildən bu yana Azərbaycanın yeni tarixi başlayır. O tarix qalib bir xalqın tarixidir, qalib bir dövlətin tarixidir. Mən tarixdən bilirəm ki, "Niderland" sözü Azərbaycan dilinə tərcümədə "çökəkdə olan ölkə" deməkdir. Elə başa düşürdüm, əlbəttə, bu, coğrafi bir mənadır. Sən demə, doğrudan da, Niderland çökəkdə olan bir ölkə imiş ki, o, Azərbaycan xalqının uğurlarını, Azərbaycanın qələbəsini görə bilmir. Ən nəhayət, Niderlandın tarixində fikir versək, cırtdan bir dövlət Fransa, İngiltərə, Almaniya ilə rəqabət aparırdı. Onların müstəmləkələri çox idi, ancaq buna da yağlı bir tikə verirdilər. Bu gün Azərbaycan artıq güclü bir dövlətdir. Hər hansı təşkilatdan bizi çıxarda bilərlər, ancaq bizim demokratik yolumuzu bizim əlimizdən...

**Sədrlik edən.** Sağ olun. Bəhruz Məhərrəmov. Buyurun.

**B.Məhərrəmov**. Hörmətli sədr, əziz həmkarlar, Azərbaycan Respublikası həmişə beynəlxalq hüququ rəhbər

tutaraq faydalı əlaqələr qurulmasına önəm verib və bu çərçivədə bütün öhdəliklərə vicdanla yanaşıb. Yeganə qırmızı xəttimiz milli maraqlar, dövlətimizin müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü olub. Amma suveren haqlarımız uğrunda, Vətən müharibəsində biz xüsusən Qərb təsisatlarını səngərdə qarşımızda gördük.

4 il əvvələ qədər bizi işğalla barışdırmaq üçün etimad quruculuğundan danışan Qərb bu gün Azərbaycan və Ermənistan arasında sülhə mane olmaq üçün bütün imkanlarını səfərbər edib. Hüququn aliliyindən, demokratiya və insan hüquqlarından danışan bu strukturları indi separatizmin havadarı kimi görürük. Məsələn, antiterror tədbirlərindən sonra artıq Avropa Parlamenti ilə ASALA-nın, yaxud AŞPA və Daşnaksütyunun ritorikasını ayırmaq mümkün deyil. Bu ikili standart Azərbaycanın suverenliyinə hörmətsizlikdir. Əgər bir təşkilat bizim suverenliyimizə lazımi hörmətlə yanaşmırsa, o strukturla əməkdaşlıq bizə lazımdırmı?

Ümumiyyətlə, sual qoymalıyıq: Qərb təsisatları bizə vədlərdən başqa nə verib?! Bəli, hüquq quruculuğu prosesində mütərəqqi hesab etdiyimiz Avropa təcrübəsindən faydalanmışıq. Amma bu gün AŞPA-nın timsalında Avropa özü həmin dəyərlərdə səmimidirmi? Bu gün zəngin intellektual potensialı, təbii ehtiyatları, əvəzedilməz coğrafi mövqeyi, ən əsası isə liderinin vizyonu Azərbaycana dünya birliyində sanballı yer tutmağa imkan verir. Dünya isə Amerika və Avropadan ibarət deyil.

Ulu Öndərin 1993-cü il sentyabrın 22-də tarixi çıxışında dediyi kimi: "Dünya" deyəndə bütün dövlətlər nəzərdə tutulur". Burada türk dünyası var, XIX-XX əsrlərdə inkişafımızın birbaşa bağlı olduğu Rusiya, Çin, ərəb dünyası və sair var.

Bilirsiniz, Heydər Əliyev Azərbaycanda yalnız dövlət qurmayıb, Heydər Əliyev həm də bir millət quruculuğu prosesini başladıb. Ulu Öndərin dövlət müstəqilliyi anlayışı həm də vətəndaşın təfəkkür müstəqilliyi anlayışını ehtiva edirdi. Avropanın insan konsepsiyası Azərbaycanda müstəqil azərbaycanlı deyil, antimilli ünsürü ehtiva edir. Baxın, AŞPA ilə son gərginlikdə Qərbin məhsulu olan bir qrup yerli təlxək, antimilli ünsür necə qarşı cəbhədə yer aldı.

Bizim hər hansı ölkə ilə əməkdaşlığımız böyük qardaş axtarışı deyil, daxili işlərimizə müdaxilə etmək niyyətinə düşənlər üçün onlar "suverenlik" anlayışını qavrayana qədər qapılarımız bağlı olmalıdır. Təbii ki, bunun Azərbaycanın Avropanın bizə dost olan dövlətləri ilə ikitərəfli əlaqələrinə heç bir aidiyyəti yoxdur. Biz bərabərhüquqlu tərəfdaş olaraq bizə hörmətlə yanaşan, suverenliyimizi, ərazi bütövlüyümüzü ən çətin məqamlarda şərtsiz, sözsüz tanıyanlarla, Azərbaycan insanına səmimi şəkildə qucaq açmağı bacaranlarla birgə yürüməliyik. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Aqil Abbas. Buyurun.

**A.Abbas.** Əvvəla, hamınızı xoş gördük. Parlamentə yaz sessiyasının işində uğurlar arzulayıram. Mənə söz verdiyinizə görə, sağ olun, Sahibə xanım. Məndən əvvəl danışanlar hamısı sözlərini dedilər. Onları təkrar etmək istəmirəm. Amma başqa məsələyə toxunmaq istəyirəm. Deməli, bizi sanksiya ilə hədələyirlər. Əvvəla, sanksiyadan heç vaxt qorxmaq lazım deyil. Onsuz da, 30 il sanksiyada olmuşuq. Hədələyirlər. Konfutsi deyir: "Müharibə insanların qırğını, amma dövlətlərin inkişafı deməkdir, ölkələrin inkişafı deməkdir". Çünki insanlar daha ağıllı düşünməyə məcbur olurlar. İrana 40 ildir ki, sanksiya tətbiq ediblər. İran ən uzaqvuran ballistik raketləri də, sualtı qayıqları da, hələ o təyyarə daşıyan gəmiləri də düzəldib. Yəni sanksiya ilə

bizi qorxutmaq lazım deyil. Neçə sanksiya tətbiq etsələr də, biz Müdafiə Sənayesi Nazirliyi... Amma biz sanksiya tətbiq etsək, çöldə qalarlar. Yəni Fransanın 32 və ya nə qədər atom elektrik stansiyası varsa, hamısı, təbii ki, uranla işləyir. Rusiya Fransanı vurdu, Afrikadan çıxartdı. İndi onun yeganə ümid yeri – Qazaxıstan qalıb. Hamı da bilir ki, uranı təyyarə ilə daşımaq olmaz. Ya gəmi ilə, ya da qatarla daşıya bilərlər. Qazaxıstandan da Fransaya iki yol var. Biri Rusiyadandır, Allaha şükür, o yol bağlıdır, biri də Azərbaycandandır, bizdən keçir. Biz sanksiya tətbiq etsək, görək, nə olacaq. Təkcə Fransa deyil, Almaniya da enerjini Fransadan alır. Ona görə belə şeylərdən qorxmaq, çəkinmək lazım deyil. İt hürər, karvan keçər. Qoy, hürsünlər.

Niderland da adını dəyişib. Hollandiyanın adını Niderland qoymaqla o zibillərindən qurtara bilməz. Elə Niderland Hollandiyadır. Mənim sözüm odur ki, sanksiyalardan qorxmaq lazım deyil. Mən çox istəyərdim, Makronu Azərbaycana dəvət edək. Gəlsin, öz gözü ilə görsün ki, ermənilər burada nə törədiblər. Biz nə kilsə, nə də sinaqoq uçurdanıq. Çünki biz Allah evinə əl vurmarıq. Bütün Allah evləri – kilsə də, sinaqoq da, məscid də bizim üçün müqəddəsdir. Gəlsinlər, görsünlər, Şuşada kilsəni necə təmir edirlər. Amma mənim əlimdə imkan olsa, heç onu təmir etməzdim, necə özləri partlatmışdı, elə xaraba da qalardı. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Fəzail Ağamalı. Bizim sonuncu çıxışçımızdır. Buyurun, Fəzail müəllim.

**F.Ağamalı**. Təşəkkür edirəm, hörmətli xanım sədr. Mən bütün millət vəkillərini yaz sessiyasının başlanması münasibəti ilə təbrik edirəm. Parlamentimizə uğurlu və səmərəli fəaliyyət diləyirəm. Hörmətli xanım sədr, Sizin demiş olduğunuz fikirlərə tamamilə şərikəm. Parlamentin

bütün iradəsini ifadə edərək Sizin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müəyyən etmiş olduğu xarici siyasətə göstərdiyiniz xidmətlər, verdiyiniz töhfələr hər birimizi sevindirir. Biz indi olduqca anormal və ədalətsiz münasibətlərin içərisindəyik. Korrupsiyalaşan demokratiya və fundamental insan haqlarını təpiklər altına atan Avropa məkanında fəaliyyət göstərən Avropa İttifaqı, Avropa Parlamenti və bunlarla tam həmrəy olan AŞPA dayanmadan üzərimizə gəlməkdədir. Rabitəsiz, biri digərini təkzib edən bəyanatlarla yadda qalan Barrel Makrondan aldığı təlimatlara əməl edərək bütün hədləri keçir və Azərbaycana qarşı yönələn bəyanatlardan yorulmaq bilmir. Avropa Parlamenti illərdir ki, ölkəmizi hədəfə alıb, haqsız, ədalətsiz mövqeyini siyasi fəaliyyətinin prioritetinə çeviribdir. Vaxtı ilə Köçəryan və Sarkisyan kimi canilərə qucaq açıb tribuna verən, təkəbbürlü, torpaqlarımızı işğal etməklə lovğalanan, bu cinayətkar əbləhləri alqışlayan AŞPA, nəhayət, iç üzünü, xristian təəssübkeşliyini, islamofob və anti-Azərbaycan mövqeyini nümayiş etdirdi. Olmayan bəhanələrlə nümayəndə heyətimizin etibarnaməsini təsdiqləmədi. Səbəb sadədir: bu, ölkəmizin erməni vandalları, bunları illərlə himayə edənlərin üzərində tarixi qələbəmizdir, Zəfərimizdir, Azərbaycanın müstəqil siyasət yeridən ləyaqətli və güclü dövlət olmasıdır. Bu onları qəzəbləndirib.

Əslində, Azərbaycanın Avropa Şurasına üzv olmasında başlıca məqsəd onun elan etdiyi insan haqları və qanunun aliliyi prinsipinə söykənib Ermənistanın işğalı nəticəsində bütün fundamental hüquqları pozulan 1 milyona yaxın soydaşımızın hüquqlarının bərpasına bəslənən ümid idi. Lakin 19 il ərzində biz bunların şahidi olmadıq. Əksinə, onlar bütün mənalarda ermənilərin yanında oldular.

2001-ci ildən AŞPA-nın üzvüyük. Bir-iki haqqa söykənən sənəd istisna olmaqla 19 ildə erməni işğalına, onların törətdikləri vəhşiliklərə görə prinsipial və ədalətli mövqe tutmayan, əksinə, ən müxtəlif formada ermənilərin yanında yer alan və yer almaqda davam edən, erməni libasına bürünən belə bir xristian qurumunun üzvü olmağa dəyərmi? Məncə, dəyməz. Avropa Şurası olmadan, uğurlarla müşayiət olunan yolumuza davam etməliyik. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, mən hamıya təşəkkür edirəm. İndi isə gündəliyin məsələlərinə keçirik. Qeyd edim ki, bu gün biz 10 məsələni müzakirə etməliyik. Gündəliyin ilk 3 məsələsi Milli Məclisin qərar layihələridir.

Hörmətli həmkarlar, bildiyiniz kimi, hər sessiyanın əvvəlində parlamentin qanunvericilik işləri planı qəbul olunur və parlament öz fəaliyyətini həmin plan əsasında da qurur. Beləliklə, gündəliyin 1-ci məsələsi məhz yaz sessiyasının qanunvericilik işləri planı haqqındadır. Plan sizə paylanıb, hamıda var. Onu da qeyd edim ki, qanunvericilik işləri planı 5 bənddən ibarətdir. Məsələ barəsində kimsə çıxış etmək istəyir?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Görürəm ki, yazılanlar var. Əli müəllim və Siyavuş müəllim. Əli Məsimli. Buyurun.

**Ə.Məsimli.** Çox sağ olun. Hörmətli sədr, hər şeydən əvvəl 2024-cü ilin yaz sessiyasının başlanması münasibəti ilə Siz başda olmaqla bütün deputat həmkarlarımı, Milli Məclis Aparatı işçilərini və Milli Məclisin işini işıqlandıran media mənsublarını təbrik edirəm, parlamentin işinə uğurlar arzulayıram. Dövlətimiz və xalqımız üçün düşərli, uğurlu olsun, inşallah.

Qanunvericilik işləri planına çox vacib qanunvericilik sənədləri daxil olub: “Hərbi qulluqçuların statusu haqqında”, “Ali təhsil haqqında” qanunlar kimi – bunlar həddən artıq çox vacib sənədlərdir. Hörmətli sədrin giriş sözündə qeyd etdiyi kimi, Nazirlər Kabinetinin hesabatı daxil olmaqla hesabat və məlumat xarakterli xeyli sənəd bu sessiyada müzakirə olunacaq. Bu nöqteyi-nəzərdən yaz sessiyası kifayət qədər zəngin gündəliyə malik olacaq.

Eyni zamanda, bəzi məqamları qeyd etmək istərdim. Hörmətli sədr, keçən sessiyada Azərbaycanda, mən deyərdim ki, hadisə hesab olunan bir qanunvericilik sənədi qəbul etdik – Rəqabət Məcəlləsi. Müstəqilliyimizin müxtəlif dövrlərində qəbul olunan antiinhisar qanunvericilik sənədlərinin əsasında müasir tələblərə cavab verən və beynəlxalq təcrübəni kifayət qədər nəzərə alan yeni Rəqabət Məcəlləsi qəbul etdik. Qanunvericiliyimizdə məcəllələşmə dairəsinin genişlənməsi istiqamətində hadisə xarakterli bir addım atdıq. Ona görə məqsədəuyğun olardı ki, yenə də məcəllələşmə xarakterli sənədlərin yaz sessiyasında da gündəliyə daxil olması istiqamətində aidiyyəti orqanlar addımlar atsınlar. Bunlar mövcud Vergi Məcəlləsi əsasında yeni Vergi Məcəlləsinin qəbul edilməsidir. Bunu ona görə qeyd edirəm ki, son dəfə Vergi Məcəlləsinə 200-dən artıq dəyişiklik edildi. Ondan qabaq da minlərcə dəyişiklik edilib. Burada da qeyd edildiyi kimi, 2020-ci ildən sonra biz yeni bir mərhələyə daxil olmuşuq. Təkcə hər sahədə deyil, iqtisadiyyatda, elmdə, təhsildə – bütün sahələrdə rəqabət qabiliyyəti olmalıdır. Bu nöqteyi-nəzərdən hesab edirəm ki, qanunvericilik sənədlərimiz də yeni dövrün tələblərinə cavab verən yeni hüquqi normativ aktlar olmalıdır.

İkinci. Aidiyyəti orqanlar tərəfindən büdcə və bank məcəlləsinin, heç olmasa, birinin yaz sessiyasına çıxaril-

masını vacib hesab edirəm. Rəqabət Məcəlləsinin qüvvəyə minməsi ilə əlaqədar olaraq yanvarın 23-də imzalanan Prezident fərmanında Nazirlər Kabinetinə göstəriş verilib ki, Rəqabət Məcəlləsinin pozulmasına qarşı məsuliyyət növlərini müəyyən edən qanun layihəsi hazırlanıb təqdim edilsin. Hörmətli sədr, bu ilin ikinci yarısında Rəqabət Məcəlləsinin tam gücü ilə işə düşməsi üçün, hesab edirəm ki, Azərbaycan Prezidentinin Nazirlər Kabinetinə verdiyi bu tapşırığı vaxtında yerinə yetirib və həmin sözügedən qanun layihəsinin, yəni yenə Rəqabət Məcəlləsinin pozulmasına görə məsuliyyət növlərini müəyyən edən qanun layihəsinin də zamanı çatanda Milli Məclisə vaxtında çatdırılması ümumi işin xeyrinə olardı.

Qeyd etmək istədiyim növbəti məqam ondan ibarətdir ki, yeni mərhələdə Azərbaycanın sürətli inkişafına təkan verən məsələlərdən biri Rəqabət Məcəlləsi, ikinci isə sahibkarlığın inkişafına dəstək həlledici rol oynayacaq. Ona görə ki, dünya iqtisadiyyatı xeyli dərəcədə kiçik və orta biznes üzərində dayanıb. Xüsusən də, inkişaf etmiş ölkələrin iqtisadiyyatı öz əhatəli dairəsini genişləndirəndə yenə də kiçik və orta biznesə dayanır. Bundan əlavə isə, dayanıqlılığın da bunun hesabına... Ona görə hesab edirəm ki, iki istiqamətdə yeni qanunlar, birinci, sahibkarlıq fəaliyyətinə dair mükəmməl bir məcəllənin qəbul edilməsini vacib hesab edirəm. İkinci isə, Vergi Məcəlləsində mikrosahibkarlardan alınan 5 faizlik güzəştli cərimənin 20 faizə qaldırılması ciddi narazılıq doğurub. Hesab edirəm ki, 1 rübdə monitorinq aparılsın və həmin dəyişikliyə yenidən baxılsın. Yenə də mikrosahibkarlara 20 faiz güzəştin verilməsi bərpa olunsun. Ona görə ki, məhz kiçik sahibkarlığın, mikrosahibkarlığın dairəsinin genişləndirilməsi, Azərbaycanda onun özünə layiq səviyyədə yer tutması

ümumi iqtisadiyyatın tiplərinin, keyfiyyətin artırılmasında mühüm rol oynayacaq.

Növbəti qeyd etmək istədiyim məsələ COP29-la bağlıdır. COP29 kimi çox mötəbər bir tədbirin Azərbaycanda keçirilməsi, eyni zamanda, xüsusi Prezident sərəncamı ilə Azərbaycanda 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi qanunvericiliyimizdə də bir sıra yeni qanunlara və qanunlara əlavə və dəyişikliklər edilməsinə gətirib çıxara bilər. Bu nöqteyi-nəzərdən mən komitədə məsələni qaldırmışdım. Burada da qeyd etmək istəyirəm ki, biz "Aqrar sığorta haqqında" Qanuna quraqlıq məsələsinin təbii fəlakət kimi salınması istiqamətində yeni qanunvericilik sənədi hazırlamışıq, prosedur qaydalardan keçməklə bunun da zamanı çatanda Milli Məclisdə müzakirə olunmasını vacib hesab edirik. Çünki, hörmətli sədr, məsələn, 10 il əvvəlkindən fərqli olaraq indi kənd təsərrüfatı iqlim dəyişikliyinin təsiri və təzyiqi ilə riskli bir sahəyə çevrilib. İnsanların daha çox riskə məruz qaldığı həmin sahələrə mütləq dəstəyin artırılmasına ehtiyac var.

Bir faktı da qeyd etmək istərdim ki, quraqlıq nəticəsində ziyan çəkən fermerlərin hərəsinin ailəsində 3-5 uşaq var. Deməli, təkcə həmin fermer deyil, onun ailəsində olan uşaqlar da bu fermerlər bankrot vəziyyətinə düşəndə ziyan çəkirlər. Ona görə biz hazırladığımız sənədi, layihəni birinci mərhələdə işçi qaydasında vermişik. Prosedurlardan keçəndən sonra həmin sənədə də baxılmasını vacib hesab edirik. Milli Məclisin bu sessiyasının işinə bir daha uğurlar arzulayıram. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim. Növbəti çıxış. Siyavuş Novruzov. Buyurun.

**S.Novruzov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar. Mən də həmkarlarımın dediyi fikirlərə

qoşularaq, hörmətli xanım sədr, Siz başda olmaqla bütün həmkarlarımızı yaz sessiyasının başlanması münasibəti ilə təbrik edirəm. Həm Sizin, həm nümayəndə heyətimizin verdiyi bəyanatların tərəfdarıyıq, hamımız dəstəkləyirik. Vaxtında və zamanında atılmış çox ciddi addımdır. Hesab edirəm ki, hər bir millət vəkili də bunu müdafiə etməlidir, bu məsələlərlə bağlı öz fikirlərini mətbuatda və digər sosial şəbəkələrdə də bildirməlidir.

Qanunvericiliklə bağlı isə qeyd etmək istərdim ki, qanunvericilik planı hərtərəfli şəkildə hazırlanıb. Ayrı-ayrı komitələr də özlərinin gələcək fəaliyyəti ilə bağlı təqdimatlarını veriblər. 2023-cü il payız sessiyasında həm bizim Regional məsələlər komitəsinə, həm də komitə üzvlərinə 1360 müraciət daxil olmuşdur. Onlardan 960-ı həmkarlarımız tərəfindən həll olunubdur. Digərləri isə aydınlaşdırılması üçün ayrı-ayrı strukturlara göndərilib. Digər komitələrdə də, hesab edirəm ki, eyni işlər görülüb. Onlar da fəaliyyətlərini bu cür davam edirlər. Çünki biz gərək hesabatımızı da çatdıraq. Bilsinlər ki, bu qədər addım atılıb, bu qədər vətəndaş qəbul olunub, onların müraciətləri öz həllini tapıb.

Burada bir məsələyə xüsusilə toxunmaq istəyirəm. Bilirsiniz ki, bu ilin axırında ölkəmizdə bələdiyyə seçkiləri keçiriləcək. Bu seçkilərlə əlaqədar Seçki Məcəlləsinə kifayət qədər təklif daxil olub ki, müəyyən məsələlər sadələşdirilsin. Düzdür, bələdiyyələrin fəaliyyəti ilə bizim komitə məşğul olur. Amma Seçki Məcəlləsi isə digər komitələr tərəfindən qəbul olunmalıdır. Bizim komitəlik deyil ki, hazırlayaq, təqdim edək. Amma bunu da təqdim etməyə köməklik etməyə hazırıq.

Birinci növbədə buradakı sayların azaldılması məsələsi. Say həddindən artıq çoxdur. Türkiyə kimi dövlətdə təx-

minən 800 bələdiyyə fəaliyyət göstərir, əhalisi bizdən də çoxdur. Bizdə 1600 bələdiyyə fəaliyyət göstərir. Yaxud da oradakı tərkibdə 19 nəfərdən başlamış 5 nəfərə qədər üzvlərdir, amma Türkiyədə elə yerlər var, yaxud Avropanı götürsək, bir şəhərə 1 nəfər seçirlər və o da bunu idarə edir. Bu da sadələşdirilmiş mexanizmdir. Biz onu etsək, daha yaxşıdır.

İkincisi. Təkliflərdən biri ondan ibarətdir  ki, bələdiyyə sədrləri, yəni ora seçilmişlər deyil, elə birbaşa seçicilər tərəfindən seçilsin. Bizim qanunvericilikdə bütün seçkili vəzifələrə hamı birbaşa xalq tərəfindən seçilir. Ona görə bələdiyyə sədrlərinin də birbaşa seçici tərəfindən seçilməsi təklifinin gələcəkdə öz əksini tapmasını istəyirik.

Üçüncü bir məsələ, həddindən artıq sənədlərin çoxluğu ilə bağlıdır. 1 nəfərin namizəd olması üçün 60 səhifədən artıq sənəd təqdim olunmalıdır. Məsələn, prezidentliyə namizədlə bələdiyyə üzvlüyünə namizəd eyni sənədləri təqdim edir. Buna görə də müəyyən yerlərdə bələdiyyə seçkiləri zamanı o insanlar üçün çətinlik yaranır. Bunun səlahiyyətli nümayəndəsi olmalıdır. 1 nəfər  seçiləcək, bunun 2 nəfər səlahiyyətli  nümayəndəsi olmalıdır. Bunun maliyyə məsələləri və sair olmalıdır. Bu qədər sənədin də yığılması çətinlik yaradır. O baxımdan da hesab edirəm ki, məcəlləyə ciddi şəkildə baxılmalıdır və növbəti seçkidə...

Biz, həmçinin işğaldan azad olunan ərazilərimizdə də bələdiyyələri formalaşdıracayıq. Burada da nümunəvi bələdiyyələrin formalaşdırılması üçün addımlar atılsın. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Əziz Ələkbərov. Buyurun.

**Ə.Ələkbərov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar, Milli Məclisin yaz sessiyasının işə başlaması münasibəti ilə mən də hər kəsi təbrik edirəm.

Milli Məclisin 2024-cü il yaz sessiyasının qanunvericilik işləri planına, təbii ki, mən də səs verəcəyəm. Bir təklifim var. Artıq neçə ildir ki, biz bütün sessiyalarda bir məsələni hər dəfə iş planına daxil edirik. Lakin heç cür yekunlaşdırıb plenar iclasın müzakirəsinə çıxara bilmirik, sessiyadan sessiyaya keçiririk. Bu, Ali təhsil haqqında qanun layihəsidir.

Mən bu qanun layihəsi ilə tanışam. Bildiyimə görə, o, Elm və təhsil komitəsində də müzakirə olunub. 2022-ci il oktyabrın 31-də Şuşa şəhərində Elm və təhsil və Mədəniyyət komitələrinin birgə iclasında da bu qanun layihəsi müzakirə olunub. Həmin müzakirədə mən də iştirak etmişəm. Həmin iclasda komitələrin üzvləri qanun layihəsi haqqında çox müsbət fikirlər dedilər və plenar iclasın müzakirəsinə təklif etdilər. Mənim üçün maraqlıdır, bəs səbəb nədir ki, bu qanun layihəsi sessiyadan-sessiyaya ötürülür? Belə getsə, biz elə belə də VI çağırışı başa vuracağıq. Ona görə də mən təklif irəli sürürəm: Əgər bu qanun layihəsi müzakirəyə çıxarılma səviyyəsində hazır deyilsə, birdəfəlik gündəlikdən çıxarılsın. Lakin əgər hazırdırsa, mən yaxın plenar iclasların birinin müzakirəsinə onun təqdim edilməsini xahiş edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Əziz müəllim, çox sağ olun. Mən Bəxtiyar müəllimdən xahiş edəcəyəm. Bəxtiyar müəllim, Siz işçi qaydada Əziz müəllimlə danışın. Bu bizim plana salınıb. Heç kimin də istəyi yoxdur ki, sessiyadan sessiyaya atılsın. Ancaq bir az uzun çəkən prosesdir, başa düşmək olar. Çünki ali təhsil haqqında məsələ həyatımızın çox mühüm bir hissəsi haqqında qanun layihəsidir. Dediyim kimi, müxtəlif dinləmələr keçirilir və sair. Əziz müəllim, Siz həmin komitənin üzvüsünüz? Sizin ayrıca

üzvü olduğunuz ikinci komitə var?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Əmək və sosial siyasət komitəsindəsiniz? Eybi yoxdur, qonaq kimi həmişə iştirak edə bilərsiniz. Bəxtiyar müəllim qonaqpərvər insandır. Ona görə də, Bəxtiyar müəllim, həmişə komitə iclasına çağırın. Əziz müəllimin də narahatlığını başa düşürəm. Bildiyimə görə, həmişə ali təhsil müəssisələrində də dərs demisiniz, elm adamısınız. Ona görə xahiş edirəm, mütləq baxın. Əziz müəllimin də öz fikirləri ola bilər. Düşünürəm ki, bu da çox vacibdir.

Fəzail Ağamalı. Fəzail müəllim, çıxış etmək istəyirsiniz?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Sualınız var, çıxış etmisiniz.

**F.Ağamalı.** Hörmətli xanım sədr, bu, çox ciddi məsələdir. Əziz müəllimə təşəkkür edirəm, bu məsələni qaldırdı. Siz də lazımi şəkildə bu məsələyə aydınlıq gətirdiniz. Dinləmələr keçirilməlidir. Deyirlər, dinləmə keçirilib. Bilmirəm, hər halda uzun müddət təhsil sistemində çalışan, fəaliyyətini uzun illər boyu təhsil sistemində quran insanlar o dinləməyə çağırılmayıblar. Məsələn, mən çağırılmamışam. İndi hörmətli akademik Nizami müəllimdən soruşdum, dedi, mən də orada olmamışam. Bəlkə digərlərindən də soruşsaq, deyəcəklər, olmamışıq. Yaxşı olar ki, yenidən əməlli-başlı, ciddi şəkildə dinləmələr keçirilsin və ondan sonra təqdim olunsun. Təşəkkür edirəm.

**Sədrlik edən.** Fəzail müəllim, çox sağ olun. Ancaq mən də onu qeyd edim ki, hər bir dinləmə olanda mütləq burada xəbər verilir. Bu bir. İkincisi də, dinləmələr açıqdır. Mən özüm dəfələrlə demişəm, təklif etmişəm və hər bir komitə sədri həmişə böyük razılıqla, məmnuniyyətlə

deyir ki, kim maraqlıdırsa, gəlsin. Eyni zamanda, Milli Məclisin saytında da var. Fəzail müəllim, mən düşünürəm ki, Siz köməkçinizə də desəniz, hər dəfə bununla bağlı Sizə məlumat verilə bilər. Ancaq, Bəxtiyar müəllim, yenə də sırf bununla bağlı məsələ qalxırsa, xahiş edirəm, Siz də hörmətli həmkarlarımızın fikirlərini nəzərə alın. Bəlkə, kimsə həmin zaman zalda olmur. Xahiş edirəm, mən ancaq bu qanun layihəsi haqqında deyirəm. Tapşırın, köməkçilərinizə, katibliyinizə, qoy, məlumat versinlər. Buyurun, nə isə demək istəyirsiniz?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Mən bununla bağlı çox diskussiya açmaq istəmirəm. Ancaq yenə də buyurun, söz Sizindir.

**B.Əliyev.** Hörmətli xanım sədr, hörmətli deputat həmkarlar. Mən də yaz sessiyasının işində hər birinizə uğurlar arzulayıram. Mən bir məsələyə münasibət bildirmək istəyirəm. Təhsillə bağlı Milli Məclisdə keçirilən dinləmələrə bütün siyasi partiya nümayəndələri, eyni zamanda, bütün maraqlı tərəflər dəvət ediliblər. Ali təhsillə bağlı qanun layihəsi işçi qaydada müzakirə olunub. Milli Məclisin Elm və təhsil komitəsinə işçi qrup təqdim edib və işçi qrupun təqdim etdiyi layihəni biz qanunvericiliyin tələblərinə uyğun olaraq, müvafiq icra hakimiyyəti orqanlarına göndərmişik, onların rəy və təkliflərini almışıq. Komitə onları təhlil edəndən sonra, burada qeyd edildiyi kimi, biz layihəni Şuşada müzakirə etdik. Belə qərara gəldik ki, daxil olmuş təkliflər nəzərə alınmaqla komitədə bir daha müzakirə edək, müvafiq qurumlarla ali təhsil müəssisələrinin rektorları bir daha bunu müzakirə etdikdən sonra biz Milli Məclisin Elm və təhsil komitəsinə birinci oxunuşa çıxarda bilək. Bu günə qədər hələ Milli Məclisin Elm və təhsil komitəsinə Ali təhsil haqqında qanun layihəsi

birinci oxunuşa çıxarılmayıb. Səbəb ondan ibarətdir ki, Milli Məclisin deputatları ilə onların qaldırdıqları bir sıra məsələlər müzakirə edilib və bütün qurumlarla, bütün maraqlı tərəflərlə razılaşdırılmalıdır. Biz bu müzakirələri aparmışıq. Bunlar öz həllini tapdıqdan sonra və Elm və təhsil komitəsində birinci oxunuşda o məsələni müzakirə etdikdən sonra biz Milli Məclisdə dinləmələr keçirəcəyik. Çünki dinləmələrin keçirilməsi üçün heç bir hazır layihə yoxdur. Gərək bir əsasımız olsun ki, onun üzərində müzakirə keçirilsin.

Hörmətli deputatlarımızın diqqətinə çatdırmaq istərdim ki, işçi qrup işləyən zaman biz işçi qrup tərəfindən hazırlanan qanun layihəsini bütün komitələrə göndərmişdik və xahiş etmişdik ki, təkliflərini versinlər. Mən indi burada ad çəkmək istəmirəm. O komitələrin rəyləri də bizdə var. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Məlumata görə çox sağ olun. Onlayn formatda da bir neçə dəfə görüşlər keçirilmişdi. Mənim yaxşı yadımdadır, ən birincisində mən özüm də iştirak edirdim. İndi komitələrə göndərmisiniz. Düşünürəm ki, göndərilməyən komitələr də baxarlar, öz rəylərini də verərlər.

Hörmətli həmkarlar, daha çıxış etmək istəyən yoxdur. Mən yaz sessiyasının qanunvericilik işləri planına münasibət bildirməyinizi xahiş edirəm. Buyurun, səsə qoyuruq.

| **Səsvermənin nəticələri** | (saat 12.02 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qərar qəbul edildi.

Hörmətli həmkarlar, biz gündəliyin 2-ci məsələsinə keçirik. Bildiyiniz kimi, Daxili Nizamnamənin 41-ci maddəsinə uyğun olaraq, Milli Məclisin İntizam komissiyası yaradılmalıdır. Qərar layihəsi sizə paylanıb. Xahiş edirəm, baxın, əgər başqa fikir yoxdursa, mən qərar layihəsini səsə qoyuram. Səsə qoyaq? Razısınız?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.03 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 107 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qərar qəbul edildi.

İndi isə 3-cü məsələyə keçirik. Hörmətli həmkarlar, bilirsiniz ki, Daxili Nizamnamənin 40-cı maddəsinə əsasən biz hər il Milli Məclisin Hesablayıcı komissiyasını da yaratmalıyıq. Qərar layihəsi sizdə var. Xahiş edirəm, baxın. Əgər ayrı fikir yoxdursa, səsə qoyaq. Təklif var, səsə qoyaq. Çox sağ olun. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.04 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qərar qəbul edildi.

Hörmətli həmkarlar, növbəti məsələ 4-cü məsələmizdir. Müzakirəyə təqdim olunan bu məsələ "Zeytun yağı və süfrə zeytunlarına dair 2015-ci il tarixli Beynəlxalq Saziş"ə qoşulmaq haqqında qanun layihəsidir. Bildiyiniz kimi, "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununa əsasən layihə bir oxunuşda baxılıb qəbul ediləcək. Layihəyə Aqrar siyasət komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin sədri hörmətli Tahir müəllim Rzayevə söz verirəm. Tahir müəllim, buyurun.

**T.Rzayev,** *Milli Məclisin Aqrar siyasət komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli sədr, mən də Sizi, deputat həmkarlarımı, Aparatın əməkdaşlarını yaz sessiyasının başlanması münasibəti ilə təbrik edirəm. Hər birinizə işinizdə uğurlar arzulayıram.

"Zeytun yağı və süfrə zeytunlarına dair Beynəlxalq Saziş" 2015-ci il oktyabrın 9-da Cenevrədə keçirilmiş Birləşmiş Millətlər Təşkilatının konfransında imzalanmışdır. Saziş 7 fəsildən, 37 maddədən və 3 əlavədən ibarətdir. Sazişin əsas məqsədi zeytun ticarəti sahəsində əlaqələri genişləndirmək, maneələri aradan qaldırmaq, cecə zeytun yağlarının və süfrə zeytun yağlarının fiziki-kimyəvi xüsusiyyətləri ilə bağlı milli və beynəlxalq qanunvericilikdə vahidliyə nail olmaqdır. Məhsulun keyfiyyətinə nəzarət, beynəlxalq ticarət və onun inkişafı, istehlakçı hüquqlarının qorunması və saxtakarlığın aradan qaldırılması, beynəlxalq standartların gücləndirilməsi əsas vəzifə kimi qarşıya qoyulur.

Bu sazişin müddəalarının tətbiqi məqsədi ilə Beynəlxalq Zeytun Şurası yaradılır. Beynəlxalq Zeytun Şurası

hüquqi şəxsdir. O, üzərinə düşən funksiyaları Üzvlər Şurası vasitəsi ilə həyata keçirir. Şuranın tərkibi sazişə qoşulan üzvlərdən ibarətdir. Hər bir üzv şuraya öz nümayəndə heyətini təyin edir. Sazişə qoşulmuş üzvlər zeytunçuluğun dayanıqlı inkişafına zəmanət vermək üçün zəruri tədbirləri həyata keçirmək öhdəliyi götürürlər. Bu saziş 2026-cı il dekabrın 31-dək qüvvədədir.

Bildirmək istəyirəm ki, ölkəmizdə zeytunçuluğun inkişafı ilə əlaqədar son illər bir sıra tədbirlər görülmüşdür. Artıq ölkədə 7 min hektara yaxın sahədə zeytun əkilir və demək olar ki, hər il 3 min tondan artıq zeytun becərilir. Eləcə də ölkədə artıq bir neçə zavod fəaliyyət göstərir ki, zeytun yağı hazırlanır. Sözsüz ki, belə sazişə qoşulmaq bizim üçün çox vacibdir. Çox sağ olun, minnətdaram.

**Sədrlik edən.** Sağ olun. Səməd müəllim, bu qanun layihəsinə sizin komitənizdə də baxılıb. Xahiş edirəm, komitənizin rəyini bildirin.

**S.Seyidov,** *Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri.*

Hörmətli xanım sədr, tam lehinəyik.

**Sədrlik edən.** Çox sağ olun. Çıxış etmək istəyən yoxdur. Xahiş edirəm, məsələyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.07 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Hörmətli həmkarlar, qeyd edim ki, gündəliyin növbəti 4 məsələsi birinci oxunuşda olan qanun layihələridir. Düşünürəm ki, birinci oxunuşun tələbi hamının yadındadır. 5-ci məsələ "Hərbi vəzifə və hərbi xidmət haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin sədri hörmətli Ziyafət Əsgərova söz verirəm. Ziyafət müəllim, buyurun.

**Z.Əsgərov,** *Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri.*

Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli Sahibə xanım, hörmətli həmkarlar, mən də fürsətdən istifadə edib, hər şeydən əvvəl, yaz sessiyasının başlaması münasibəti ilə hamınızı təbrik edirəm və uğurlar arzu edirəm.

Hörmətli xanım sədr, Azərbaycan Respublikası Prezidenti tərəfindən qanunvericilik təşəbbüsü qaydasında təqdim olunmuş "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanun layihəsində müvafiq icra hakimiyyəti orqanının ehtiyatında olan və toplanışlara cəlb edilən hərbi vəzifəlilərin sayının Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla həmin orqan tərəfindən müəyyən edilməsi nəzərdə tutulur. Belə ki, müvafiq icra hakimiyyəti orqanı tərəfindən toplanışlara cəlb edilən hərbi vəzifəlilərin sayı digər orqanlar tərəfindən toplanışlara cəlb edilən hərbi vəzifəlilərin sayı ilə müqayisədə azdır. Bu səbəbdən həmin sayın daha sadələşdirilmiş qaydada müəyyən edilməsi qanunvericilik təşəbbüsü hüququnun subyekti tərəfindən məqsədəmüvafiq hesab edilmişdir.

Qanun layihəsinə müsbət münasibət bildirməyinizi

xahiş edirəm. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Ziyafət müəllim. Çıxış etmək istəyən var. Elnur Allahverdiyev. Buyurun.

**E.Allahverdiyev.** Təşəkkür edirəm, hörmətli xanım sədr. Müzakirə etdiyimiz "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan bu dəyişikliklər mütərəqqi xarakter kəsb edir. Qanun həm nəzəri tərəfdən, həm də praktik-tətbiqi nöqteyi-nəzərdən daha da təkmilləşmə məqsədi daşıyır. Mən, təbii ki, müsbət səs verəcəyəm.

İcazənizlə, mən bu kontekstdə qısaca olaraq təklifimi sizinlə bölüşmək istəyirəm. Təklif ölkəmizdə hərbi xidmətdən keçmənin klassifikasiyasının tətbiq imkanları barədədir. Bu, bir sıra dünya ölkələrində, həmçinin qardaş və strateji müttəfiqimiz olan ölkə, yəni Türkiyənin təcrübəsində həyata keçirilir. Misal olaraq, hərbi xidmətə çağırışla bağlı bir sıra modellər istifadə olunur. Tam müddət hərbi xidməti saxlamaqla aşağı qradasiyalar müəyyən oluna bilər ki, buna uyğun olaraq, dövlət büdcəsinə vəsait ödəməklə daha az müddətdə hərbi xidmətin keçirilməsi üçün alternativ imkanlar yaratmaq mümkündür. Əgər hərbi xidmət 1 il yarım, yaxud ali təhsilli vətəndaşlar üçün 1 il müddət təşkil edirsə, buna alternativ olaraq büdcəyə vəsait ödənilməsi müqabilində xidməti 2, yaxud 6 ay müddətində keçmək olar. Fikrimcə, belə bir dəyişiklik etmiş olsaq, bu, bir sıra problem, yaxud obyektiv çətinliklərin çözümündə öz müsbət rolunu oynaya bilər.

Burada ilk növbədə gənclərin təhsil probleminə diqqət yetirilə bilər. Azərbaycanda iki dəfə gənclərin dövlət hesabına xaricdə təhsil almalarını tənzimləyən proqram qəbul olunub. Bu bizim dövlət siyasətimizdir. Cənab Prezidentin təşəbbüsüdür ki, əldə etdiyimiz kapitalı insan kapitalına

çevirməliyik. Gənclərin savadlı kadr olaraq yetişdirilmələri hökumətin prioritetlərindən biridir. Təbii ki, hər bir vətəndaş hərbi xidmət borcunu yerinə yetirməlidir. Ancaq ali təhsil almış şəxslər 1 il ərzində hərbi xidmətdə olduqdan sonra yenidən təhsilə, elmi axtarışlara adaptasiya olunmaq, karyera quruculuğu baxımından müəyyən çətinliklər yaşayırlar.

Düşünürəm ki, əgər belə bir dəyişiklik edilərsə, bu kimi gənclərimiz, misal üçün, 2 aylıq hərbi xidmət proqramını keçməklə təhsilini davam etdirməyə, yaxud karyera quruculuğu prosesinə qayıda bilərlər. Bu, həm təhsil, həm də karyera kimi vacib məqamlarda ardıcıllığın əldə edilməsinə səbəb ola bilər. Fikrimcə, hər bir gənc hərbi biliklərə yiyələnmək, vətəni qorumaq üçün hərbi bacarıqlara malik olmaq kimi vəzifənin daşıyıcısıdır.

Hesab edirəm ki, belə bir dəyişiklik həyata keçirilərsə, bütün ali məktəblərdə zamanında mövcud olmuş hərbi kafedraların bərpası məsələsinə baxıla bilər. Bu yolla təhsil dövründə tələbələrin hərb elmi ilə tanışlıq prosesi təşkil oluna bilər. Cəmiyyətimizdə orduya, hərbiyə maraq olduqca güclüdür. Professional hərbi xidmətə meyil göstərən gənclərin sayı artır. Vətən müharibəsindəki qələbəmizlə əldə edilən ruh yüksəkliyi, vətənpərvərlik, təbii ki, bu prosesdə də təkanverici qüvvə rolunda çıxış edir.

Eyni zamanda, müzəffər Ali Baş Komandan cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsindən sonra Silahlı Qüvvələrimizdə köklü islahatlar həyata keçirilir. Qardaş Türkiyə ordusunun modelindən bir misal çəkə bilərik. Komanda tipli qoşun növləri formalaşdırılır. Bu, hərbi güc, qüdrət və peşəkarlıqla yanaşı, həm də mobillik deməkdir.

Biz müharibədə qələbə qazanmışıq. Sülhə doğru ge-

dirik. Düşünürəm ki, çevik, hazırlıqlı, mobil hərbi heyətin formalaşması həm müasir ordu baxımından, həm də büdcəyə qənaət nöqteyi-nəzərdən əlverişli olar. Ordumuzun professional hərbçi peşəsini məşğuliyyət kimi qəbul edən vətəndaşlardan ibarət silahlı qüvvələrin formalaşdırılması yolunda mühüm addım sayıla bilər. Bu yenilik məşğulluq probleminin də çözümündə öz tövsiyəsini verər. Ödənişli və qısamüddətli hərbi xidmətdən əldə edilən büdcə gəlirləri isə öz növbəsində ordunun ehtiyaclarına, yaxud hərbi heyətin məvaciblərinin artırılmasına yönəldilə bilər. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Sabir Rüstəmxanlı. Buyurun.

**S.Rüstəmxanlı.** Təşəkkür edirəm, hörmətli sədr. Bu qanun layihəsinə edilən dəyişiklik hamımız tərəfindən müdafiə olunacaq. Söhbət ondan getmir və çıxışların da ümumi mahiyyəti məlumdur. Eyni zamanda, Azərbaycanda gənclər arasında hərbi işə rəğbət, əslində, hamımızı sevindirir. Bu günlərdə mən Ermənistanın prezidentinin çıxışına qulaq asdım. Deyir ki, ümumiyyətlə, cavanların böyük əksəriyyəti ordudan yayınıb. Hərbi iş orduya getmək, hərbi qulluğa getmək istəyənlər son dərəcə azdır və böyük əksəriyyəti də ölkədən çıxıb gedir ki, orduda qulluq etməsin. Məncə, Azərbaycanı belə bir təhlükə gözləmir və biz buna sevinməliyik. Bu, işin bir tərəfidir. Təbii ki, gələcəkdə Azərbaycanda ordu peşəkarlığı, peşəkar ordunun yaranması məsələsi həll olunacaq. Bu cəhətdən bizim mobil, güclü və ölkəni hər zaman müdafiə edə bilmək qüdrətində olan ordumuz yaranacaq.

Mən məsələnin ifadə tərzinə diqqəti cəlb etmək istəyirəm. Biz bu barədə çox danışırıq. Bizim qanunlarımızın dili, ümumiyyətlə, həmişə problemdir. Elə dildə yazılır ki, özümüzdən başqa heç kim başa düşməsin. Bəzən heç

özümüz də başa düşmürük. Bir cümlədir: “müvafiq icra hakimiyyəti orqanı toplanışlara cəlb edəcəyi hərbi vəzifələrin sayını müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırmaqla müəyyən edir”. Öz-özü ilə müəyyənləşdirir? Kimlə müəyyənləşdirir? Bunların arasında heç bir fərq yoxdur. Birinci nə müvafiq icra hakimiyyəti orqanıdır, ikinci nədir? Qanunda belə şey olmaz. Danışıq ayrı şeydir, amma burada yazılan bu cümlə heç nəyi ifadə etmir. Get ora, bilmirəm, hara, gətir onu, bilmirəm, nəyi. Bu cür olmaz, axı. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Ziyafət müəllim, istəsəniz, sonda cavab verərsiniz. Siyavuş Novruzov. Buyurun.

**S.Novruzov.** Təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli deputatlar. Burada bir neçə məsələ qaldırıldı. İlk növbədə qanuna səs verəcəyik və həmkarlarımı da səs verməyə dəvət edirəm.

Ümumiyyətlə, dünyada 3 xidmət növü var: hərbi xidmət, alternativ hərbi xidmət və alternativ xidmət. Bunlar hamısı bir-birindən fərqlidir. Dünyada elə ordular var ki, orada alternativ hərbi xidmətdir. Eləsi var ki, qarışıq hərbi xidmətdir. O baxımdan da deputat həmkarımız burada yaxşı məsələlərə toxundu. Həmçinin ödənişli əsasda olmaq. Amma mən qeyd etməliyəm ki, əslində, bizdə bu proses gedir. Ordunun böyük hissəsi deyəndə, bir hissəsi artıq müqavilə əsasa keçib. Yəni müqavilə bağlamaqla orada iştirak edirlər. Həmçinin artıq cənab Prezidentin tapşırığı ilə bütün təsərrüfat məsələləri və digər məsələlər mülki vətəndaşlar tərəfindən həyata keçirilir. Məsələn, istər əsgər yeməkxanalarında, istər əsgər çörək zavodlarında, istərsə də təsərrüfatla bağlı olan digər sahələrdə artıq mülki şəxslər iştirak edirlər və kifayət qədər də əmək haqqı alırlar. O baxımdan əsgərlərdə bu hissə də ortadan çıxıb.

Başqa bir məsələ. Yeni texnikalar alınır, bahalı qiymətə gətirilir. Bilirsiniz, elə şeylər var ki, bunu həqiqi hərbi xidmətə çağırılmış şəxsə etibar etmək olmaz, heç bunu öyrənə də bilmir. Elə tanklar var, onu sürməyi öyrənmək üçün 1 il vaxt tələb olunur. Bizdə ali təhsil alanlar üçün müddət 1 ildir, ali təhsil almayanlar üçün il yarımdır. Ona görə də onu öyrənib qurtaranda hərbi xidmət vaxtı artıq başa çatır. O baxımdan da artıq orada yetişmiş kadrlar, savadlı kadrlar kompüter texnologiyaları, dron texnologiyaları və digərləri var. Orada kifayət qədər təcrübəli və kifayət qədər savada malik olan insanlar çalışır ki, bu da onlarla müqavilə əsasında həyata keçirilir.

Hələlik 3-cü növə, yəni pullu ödənişlə olan xidmətə gəlib çıxmamışıq. Bu yaxınlarda Ermənistan da bu məsələni qoydu ki, ümumiyyətlə, xidmətə getməyən 37 min dollar, 6 ay getmək istəyən filan qədər versin və sair. Onsuz da, tədricən bu mərhələlərdən birinə çıxacağıq. Mən hesab edirəm, ən düzgün mərhələ alternativ hərbi xidmətdir. Müqavilə əsasında olan hərbi xidmət həm iş yeridir, həm fəaliyyətdir, həm də bağlanmış müqavilə əsasında hər kəs son nəticədə öz təqaüdünü də, sosial problemini də həll eləyəcəkdir. Sağ olun. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Siyavuş müəllim. Ziyafət müəllim, xahiş edirəm, Sabir müəllimin sualı var idi. Mən üzr istəyirəm, mən dedim, cavab verin, yəni, sadəcə, bir açıqlama verin. Buyurun.

**Z.Əsgərov**. Çox sağ olun, hörmətli xanım sədr. Sabir müəllimin sualına cavab olaraq bildirmək istəyirəm ki, mən artıq burada izahat verdim. Yəni o hərbi qulluqçuların toplanışlara cəlb olunma kvotası cənab Prezidentlə razılaşdırılacaq. Amma hansı orqanlar olacağını biz burada dəqiq yaza bilmirik. Sabir müəllim, Siz neçə ilin

deputatısınız, Allaha şükür, bunları bilirsiniz. Bizim Konstitusiyada Azərbaycan Respublikasının qanununda konkret olaraq göstəriş verilə bilməz ki, burada hansısa konkret orqanın adı yazılsın. Ona görə də biz "müvafiq icra hakimiyyəti" yazırıq. Səbəb budur, çox bəsit, çox sadədir. Bu, artıq neçə illərdir, bizdə tətbiq olunur, Azərbaycan Konstitusiyasında yazılan bir müddəadır. Ona görə biz burada konkret dövlət orqanlarının adını yaza bilmərik. Müvafiq icra hakimiyyəti orqanı Azərbaycan Respublikasının Prezidentinin bu qanunun tətbiqi ilə bağlı verəcəyi fərmanda müəyyən ediləcək. Bu qədər. Təşəkkür edirəm, sağ olun.

**Sədrlik edən.** Oldu. Çox sağ olun. Hörmətli həmkarlar, daha çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.22 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 2 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi. Növbəti məsələyə keçirik. "Avtomobil yolları haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Mən komitənin sədri hörmətli Tahir Mirkişiliyə söz vermək istəyirəm. Tahir müəllim, buyurun.

**T.Mirkişili,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli Sahibə xanım, mən də, icazənizlə, fürsətdən istifadə edib başda Siz olmaqla bütün həmkarlarımı yaz sessiyasının başlanması münasibəti ilə təbrik edirəm və işlərinizdə uğurlar arzu edirəm. Hörmətli həmkarlar, bildiyiniz kimi, artıq bir müddətdir ki, Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin tərkib hissəsi olan Bakı–Quba–Rusiya avtomobil yolunun 129 kilometrlik bir hissəsi ödənişli yol kimi müəyyən edilmişdir. Artıq fəaliyyətə də başlamışdır və ödəniş məbləği də Tarif Şurası tərəfindən təsdiq olunmuşdur. Amma qanunvericilikdə yığılan məbləğlərin istifadə olunması ilə əlaqədar müəyyən qaydaların qəbul edilməsi ilə bağlı tələb də mövcuddur. Bildiyiniz kimi, bu tələb Nazirlər Kabineti tərəfindən işlənilir. Amma qaydaların işlənməsi üçün qanunvericilikdə bununla bağlı əsas yaradılmalıdır və bu gün bizim sizinlə müzakirə etdiyimiz "Avtomobil yolları haqqında" Qanuna edilən dəyişiklik qanunun 19-1-ci maddəsində məhz yığılan vəsaitin istifadə edilməsi qaydalarının təsdiq olunması kimi hüquqi əsas yaradır. Qanun layihəsi komitə tərəfindən müsbət qəbul olunub. Həmkarlarımı da qanun layihəsinə birinci oxunuşda səs verməyə çağırıram, çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Yazılanlar var. Fəzail Ağamalı. Buyurun.

**F.Ağamalı**. Təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli həmkarımız Tahir müəllim kifayət qədər lakonik və dəqiq izahını verdi. O izahla tamamilə şərikəm. Bu, Azərbaycanda yeni bir sahədir və ümidvaram ki, bunun davamı da gələcəkdir. Bu, həm sürücülərin maraqlarına, həm də, təbii ki, oradan gələn vəsaitin büdcəyə daxil

olmasına imkan yaradacaqdır. Mən təqdim edilmiş olunan qanun layihəsini təqdir edirəm, müdafiə edirəm, ona səs verəcəyəm.

Dolayısı ilə bununla bağlı olan bir məsələni diqqətinizə çatdırıb təhlil vermək istəyərdim. Bəlli olduğu kimi, Azərbaycanda Bakı şəhərində və digər yerlərdə yeni tətbiq edilən "Azparking" sistemi fəaliyyət göstərir. Mən deyərdim ki, çox mütərəqqi bir sistemdir, özünün müsbət nəticələrini verməkdədir. Ayrı-ayrı yerlərdə avtomobil sahiblərinin kifayət qədər əsəbi, gərgin və qeyri-müəyyən vəziyyətdən çıxmasına xidmət eləyən səviyyəli bir sistemdir. Ümidvaram ki, bu davam etdiriləcəkdir. Əslində bu, böyük məmnunluq da yaradır. Açıq söyləyim, müşahidələrimiz əsasında, vaxtı ilə əyninə sarı jilet geyinib, əlinə də bir çubuq alan, qeyri-qanuni fəaliyyət göstərənlərin fərqli yerlərdə fəaliyyəti artıq dayandırılıb. Vətəndaş çox asan bir şəkildə pulu keçirir. Telefon vasitəsi ilə, müəyyən olunmuş tarifə uyğun olaraq, avtomobilini saxladığı yerdə pulunu ödəyir və heç bir problemlə də rastlaşmır.

Bununla bərabər, demək istəyərdim ki, bəzi kateqoriyalar burada güzəştli imkanlara malikdir. Avtomobillərini yaşadıqları binanın ətrafında saxlayan insanlar ödənişlərdən azaddırlar. Bizə təkliflər gəlir, müraciətlər olunur ki, mümkündürsə, bu güzəştlər digər kateqoriyalara da şamil edilsin. İndi bilmirəm, bu nə dərəcədə yerinə yetirilir və ya yerinə yetirilmir. Vətəndaşlarımız 8 saat iş yerində olurlar. İş yerinə gələndə, təbii ki, avtomobillə gəlirlər və avtomobili həmin iş yerinin qarşısında saxlayırlar. Onlara güzəşt yoxdur. İndi məcburdurlar, bu avtomobillə iş yerinə gəlsinlər və 8 saat da orada olsunlar. Əgər saatı 1 manatdırsa və 1 saat keçəndən sonra 2 manat olursa, beləliklə, bu rəqəmə vurulanda kifayət qədər ciddi pul hesab olunur.

İkinci kateqoriyaya aid olan şəxslərin müraciəti ali məktəblərlə bağlıdır. Ali məktəb müəllimləri iş yerlərinə, eyni zamanda, tələbələrdən bəziləri şəxsi avtomobilləri ilə gəlirlər. Onlar da bu cür güzəştlərdən uzaqdırlar. Yəni o güzəştlər onlara da tətbiq olunmur. Yaxşı olmazmı ki, bu insanlara, bu şəxslərə bu güzəştlər şamil edilsin? Bu, düşünürəm ki, çox ədalətli bir yanaşma olardı. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Hikmət Məmmədov. Buyurun.

**H.Məmmədov**. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Mən də yaz sessiyasının başlaması münasibəti ilə bütün həmkarlarımı təbrik edirəm. "Avtomobil yolları haqqında" Qanuna dəyişikliklə bağlı layihəyə səs verəcəyəm. Amma mən düşünürəm ki, bizə, ümumiyyətlə, avtomobil yolları haqqında yeni bir qanun lazımdır. Çünki şəhərimiz inkişaf edir, yol istifadəçilərinin avtomobillərinin sayı artır. Belə olan halda bu qanun köklü şəkildə tamamilə yenidən işlənməlidir ki, bu tələblərin yerinə yetirilməsinə imkanlar yaratsın. Ulu Öndər Heydər Əliyev deyirdi ki, "yol iqtisadiyyat, mədəniyyət, bir sözlə, hər şey deməkdir". Amma bu gün yol həm də vaxt deməkdir və vaxtdan da qiymətli bu gün heç nə yoxdur. Ona görə də mən düşünürəm ki, yol və o yollardan istifadə ilə bağlı müəyyən qaydalar tətbiq olunarkən ilk növbədə vətəndaşların rahatlığı, rifahı və təhlükəsizliyi nəzərə alınmalıdır. Yəni yol istifadəsinə və onun səmərəliliyinə kompleks yanaşmaq lazımdır ki, bunun üçün də yeni qanuna ehtiyac var. Məsələn, bunlardan biri yollarda sürət həddinin müəyyənləşdirilməsi ilə bağlıdır. Bu sürət həddi nəyə görə müəyyənləşdirilir? Şübhəsiz ki, vətəndaşların təhlükəsizliyi və vaxtın səmərəliliyi üçün. Amma mən bu günə qədər bu sürət məhdudiyyətləri qoyanların bir hesabatına, müqayisəli təhlilinə rast gəlməmişəm. Tutaq ki, biz Bakı

Hava Limanı yolunda sürəti 110 kilometr-saatdan 90 kilometr-saata endirdik. Bu prosesdə nə qazandıq? Qəzaların sayı nə qədər azaldı? Ekologiyamız nə qədər təmiz qaldı? Yanacaq sərfiyyatı nə qədər azaldı? Vətəndaş nə qədər vaxt qazandı? Bunların heç biri yoxdur. Sürəti aşağı salmaqla, təhlükəsizliklə bağlı heç bir müqayisəli rəqəm yoxdur ki, sürət 110 kilometr-saat olanda nə qədər vətəndaşımız qəzalarla üzləşirdi, 90 kilometr-saat olanda nə qədər üzləşibdir? Zəhmət çəksinlər, vətəndaşlara, ictimaiyyətə bir hesabat versinlər, çıxış eləsinlər.

İkincisi. Nəqliyyatın yanacaq sərfiyyatı nə qədər artdı? Abşeron rayonunun ekoloji vəziyyəti, onsuz da, çox mürəkkəbdir. Sürət həddini aşağı saldıqca nə baş verir? Yanacaq sərfiyyatı artır. Belə olan halda özümüzü zəhərləmiş oluruq. Sürət həddini aşağı salanda nə baş verir? Əlbəttə ki, vaxt itkisi baş verir. Yəni vətəndaşlar həm də vaxtlarını itirmiş olurlar. Bu da yol istifadəçilərində stress yaradır. Deməк, sağlamlığımıza da ziyan dəyir. Bu, məsələnin bir tərəfidir. Kim ki o yollarla bağlı məhdudiyyətləri qoyur, zəhmət çəksin, ictimaiyyət qarşısında bir hesabat versin. Görək, nəyə nail olmuşuq? Mən düşünürəm ki, eyni məsələlər, Bakı–Quba yolu və Bakı–Gəncə yoluna aiddir. Çünki Şimal yolumuz da saatda 110 kilometr sürət idi, 90 eləyiblər. Yolun sağı da, ortası da təhlükəsizlik baxımından müxtəlif vasitələrlə təmin olunub. Amma sürət 60-dır. Niyə? Nə üçün? Yəni bu, vətəndaşda sual yaradır. Bu suallara aydınlıq gətirmək lazımdır.

Digər məsələ. İndi şəhərdə dəb düşübdür, avtomobil yollarını zolaqlayırlar. Bir də görürsən ki, kiminsə ağlına gəldi, bir yerdən bir zolaq çəkdi. Deyir, bu, avtobus yollarıdır və bura girmək olmaz. Bu, sürücülərdə stress yaradır və müxtəlif cərimələrlə üzləşirlər. Amma bu

hərəkət yolun yükgötürmə qabiliyyətini artırmır, yollarda tıxacları azaltmır. Belə olanda tətbiq olunan yenilikdən sonra yenə hesabatlılıq olmalıdır ki, nə oldu, nə baş verdi? Məsələn, bu yaxınlarda Bakı–Sumqayıt yolunda avtobuslar üçün xüsusi zolaq yaratdılar. Əgər biz baxsaq, görəcəyik ki, tıxaclar artıb, Bakıdan Sumqayıta vaxt müddəti çoxalıb, yanacaq sərfiyyatı artıb, Abşeron yarımadası ekoloji baxımdan çirklənməyə məruz qalıb. Nə avtobuslar vaxtında çata bilirlər, nə də özəl xüsusi avtomobil nəqliyyatından istifadə edirlər. Yəni əlavə problem yaratmışıq.

Ayrı bir məsələ. Nə edirik? Velosiped zolaqları yaradırıq. Qış parkının yanında təzə velosiped zolağı çəkiblər. Kimin yolu düşsə, getsin, baxsın. Biz orada belə məsələlərlə tez-tez üzləşirik. Yaşıl bir zolaq çəkiblər, üstünə velosiped işarələrini qeyd ediblər. Qış parkından gedirsiniz, birdən zolaq qırılır. Çünki kiminsə zirzəmisi qabağa çıxıb. Belə çıxır, biz ya oradan körpü salmalıyıq, ya da başqa bir çevik qabiliyyətimiz olmalıdır ki, onun üstündən hoppanaq. Sonra yenə yol davam edir. Bir az gedirsiniz, bir başqasının eyvanı qabağa çıxıbdır, yenə yol qurtarır, bağlanır. Ondan sonra yenə zolağı davam elətdiriblər. Bu velosiped istifadəçisi məcburdur ki, artıq yenə avtomobil yolundan istifadə eləsin. Orada ikizolaqlı avtomobil yolu var. Zolağın biri qalır, digərinin də ortasından velosiped yolu çəkiblər. Yəni biz bununla nə eləməyə çalışırıq, bəlli deyil. Vətəndaşlarımızın təhlükəsizliyinin qeydinə qalırıqsa, elə deyil. Çünki məcburən velosipedçi yenə avtomobil yoluna çıxacaqdır, yenə qəza baş verəcəkdir. Başqa nəyə nail olmaq istəyirik, bu da bəlli deyil. Ona görə də yollarımızda əsaslı yenidənqurma işləri aparılmadan, yol zolağı genişləndirilmədən bunları tətbiq eləmək olmaz. Bu işlərlə kim məşğul olursa, bu subyekt zəhmət çəksin, bir

hesabatlılıq yaratsın, ictimaiyyət qarşısında hesabat versin ki, məhz filan sürət məhdudiyyətini tətbiq etdim, ölkəmiz bu qədər qazandı, vətəndaşımız bu qədər qazandı, tıxac bu qədər azaldı. Yoxsa belə olmaz ki, hər yerdə var, kor-koranə bizdə də olsun. Bu şəkildə yanaşmaq olmaz. Mən qanun layihəsinə səs verəcəyəm. Amma gələcəkdə avtomobil yolları və onların idarə olunması ilə bağlı bizə tamamilə yeni qanun lazımdır. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, mən qanun layihəsini səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.34 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi. Növbəti məsələyə keçirik. “Qida təhlükəsizliyi haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Bu bizim 7-ci məsələmizdir. Layihəyə Aqrar siyasət komitəsində baxılıb. Tahir müəllim, mən yenə də Sizə söz verirəm. Tahir Rzayev. Buyurun.

**T.Rzayev.** Çox sağ olun, hörmətli sədr. Hörmətli sədr, hörmətli deputat həmkarlar, “Qida təhlükəsizliyi haqqında” Qanunun 2023-cü il yanvar ayının 1-dən qüvvədə olması insanların həyat və sağlamlığının qorunması, yerli qida və yem məhsullarının rəqabət qabiliyyətliliyinin və ixrac potensialının artırılması, sahibkarlığın inkişafı və digər ümumi sahələrdə əhəmiyyətli olmuşdur. Ancaq yeni

reallıqlar qanunun tətbiqində ortaya çıxan məsələləri tənzimləməyi və dəqiqləşdirməyi zərurətə çevirir. Təklif olunan bu dəyişiklik qida obyektlərinin təsdiqindən imtina edilməsi üçün əsasları dəqiqləşdirir. Belə ki, aparılan qiymətləndirmə nəticəsində qida obyektində aşkar edilmiş uyğunsuzluqların infrastruktur və avadanlıqlarla əlaqədar olduğu və təhlükəli qida və yem məhsullarının istehsalına və emalına səbəb olacağı halda, qida obyektlərinin təsdiqindən imtina ediləcəkdir. Xahiş edirəm, deputat həmkarlarım öz münasibətlərini bildirsinlər. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Çıxış etmək istəyənlər var. Vüqar Bayramov. Buyurun.

**V.Bayramov**. Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli xanım sədr, mən də Sizi və həmkarlarımı yaz sessiyasının başlaması münasibəti ilə təbrik edirəm və hər birimizə işimizdə uğurlar arzulayıram. Təqdim olunan qanun layihəsini dəstəkləyirəm. Ancaq qanun layihəsi ilə bağlı bir sıra konseptual məsələləri qeyd etmək istəyərdim. Təbii ki, qanun layihəsi daha çox qida təhlükəsizliyi reyestrinin təkmilləşdirilməsini özündə ehtiva edir. Mən birinci oxunuşun tələblərinə uyğun olaraq, bir sıra konseptual məsələləri qeyd etmək istəyərdim. Burada qida təhlükəsizliyi ilə bağlı standartların gücləndirilməsi və tətbiqi çox önəmlidir. Çünki reyestrin əsas məqsədlərindən biri də məhz standartların hazırlanması və tətbiqidir. Təhlükəsizlik standartının tətbiqi, təbii ki, iqtisadi baxımdan vacibdir. Çünki Azərbaycanın qeyri-neft ixracatının artırılması üçün qida təhlükəsizliyi ilə bağlı standartların, həm də beynəlxalq standartlara uyğun olaraq hazırlanmasına və tətbiqinə ehtiyac var.

Hazırda Azərbaycanın qeyri-neft ixracatının təxminən 57 faizi iki ölkənin payına düşür. İllik 3,2 milyard dollar

qeyri-neft ixracatımızda Rusiya və Türkiyə 57 faizə malikdir. Bu standartların tətbiq edilməsi həm də bazarların diversifikasiyası baxımından çox vacibdir. Xüsusən də qeyri-neft ixracatının artırılması və iqtisadiyyatın diversifikasiyası üçün digər bazarlara, o cümlədən Körfəz, Avropa İttifaqı ölkələrinin bazarlarına daha çox qeyri-neft ixracatı məhsullarının göndərilməsinə ehtiyac var. Bununla bağlı əngəllərdən biri məhz qida təhlükəsizliyi ilə bağlı standartların beynəlxalq standartlara uyğunlaşdırılmasıdır. Düşünürəm ki, bu istiqamətdə fəaliyyətlərin daha da sistemləşdirilməsinə ehtiyac var. Çünki nəticə etibarı ilə bu, həm də Azərbaycanın qeyri-neft ixracatının artmasına gətirib çıxara bilər.

Reyestrin təkmilləşdirilməsi, reyestr vasitəsi ilə daha çox elektron məlumatların təqdim edilməsi və əlçatanlığın genişləndirilməsi çox vacibdir. İkinci oxunuşda 24-cü maddə ilə bağlı fikirlərimi təqdim edəcəyəm. Bütövlükdə, konseptual olaraq qanun layihəsini dəstəkləyirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Azay Quliyev. Buyurun. Sabir müəllim, Siz yazılmışdınız, deyəsən. Yazılmışdınız, yoxsa?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Sabir müəllim, yazılmışdınız, mən gördüm. Sonra? Siz yazıldınız, üzr istəyirəm. Azay müəllim, buyurun.

**A.Quliyev.** Təşəkkür edirəm, hörmətli xanım sədr. Mən də yaz sessiyasının başlaması münasibəti ilə bütün həmkarlarımı təbrik edirəm və hər kəsə bu vacib fəaliyyətində uğurlar arzulayıram. Hörmətli xanım sədr, hörmətli həmkarlar, heç kimə sirr deyil ki, qida təhlükəsizliyi məsələsi hər bir cəmiyyət üçün xüsusi önəm kəsb edir. Bizim hər gün istehlak etdiyimiz qidada olan maddələr, onun tərkibi,

keyfiyyəti hər birimizin sağlamlığına bilavasitə təsir edir. Bu barədə mütəxəssislər daha gözəl bilərlər. Mən bu hissəyə çox toxunmaq istəmirəm. Ancaq həqiqət ondan ibarətdir ki, bu gün Azərbaycanda bu sahədə nə qədər işlər görülsə də, hələ də problemlər qalmaqdadır. Düzdür, qanunvericiliklə bağlı parlament çox mühüm qanunlar qəbul etdi.

Bir neçə il bundan öncə "Qida təhlükəsizliyi haqqında" Qanunu qəbul etdi və yenə də ona müəyyən əlavələr edildi. Əlbəttə, qanunvericilik daim təkmilləşməlidir. Amma praktikaya baxanda biz görürük ki, bir sıra institusional addımlar da atılmalıdır. Məsələn, Ümumdünya Səhiyyə Təşkilatının hesabatını incələsək, orada da bir sıra istiqamətlərdə problemlərin olduğu göstərilir. Ümumiyyətlə, Ümumdünya Səhiyyə Təşkilatının qida təhlükəsizliyi ilə bağlı çox ciddi çağırışları var və artıq bu məsələ qlobal miqyasda iqlim təhlükəsizliyindən sonra ikinci əsas problemlər sırasındadır. Bu bizim üçün həm də ona görə vacibdir ki, ÜST-ün hesabatında Azərbaycanda orta insan ömrü 190 ölkə arasında 115-ci yerdə müəyyənləşib. Əlbəttə, bu da bizim üçün düşünməyə əsas verir.

Burada bir sıra faktorlarla yanaşı, əlbəttə, qida təhlükəsizliyi də sözünü deyir. Buna görə də mən təklif edərdim ki, biz bir neçə məsələyə diqqət ayıraq. Biz son vaxtlar qidadan zəhərlənmə hallarının çoxaldığının şahidi oluruq. Bu barədə həm sosial şəbəkələrdə, həm də ayrı-ayrı insanların müraciətlərində var. İlk növbədə, mən düşünürəm ki, qida təhlükəsizliyinin yaratdığı fəsadlar, xüsusilə zəhərlənməyə gətirib çıxaran nəticələrlə bağlı statistika düzgün aparılmalıdır. Son vaxtlar, ümumiyyətlə, qida zəhərlənməsi nəticəsində həyatını itirən insanların da sayı çoxalmaqdadır. Hesab edirəm, bu bizim üçün, Səhiyyə Nazirliyi üçün, Qida Təhlükəsizliyi Agentliyi üçün də

ciddi bir siqnal olmalıdır. Birinci, onun statistikası dəqiq aparılmalıdır və eyni zamanda, səbəblərlə bağlı ictimaiyyətə məlumat verilməlidir. İkinci, agentlik təkcə qidanın təhlükəsizliyi ilə məşğul olmamalıdır. Ümumiyyətlə, Qida Təhlükəsizliyi Agentliyinin adından göründüyü kimi, qidanın təhlükəsizliyi ilə məşğuldur. Amma burada keyfiyyət məsələsinə də ciddi önəm verilməlidir. Əgər bazarda hər hansı təhlükəli qida məhsulları, keyfiyyəti aşağı olan və istehlaka yararlı olmayan məhsullar varsa, onların aradan qaldırılması üçün mexanizm çox çevik şəkildə tətbiq olunmalıdır. Məsələn, indiki halda necə olur? İndiki halda əgər hər hansı bir yararsız mal aşkar olunarsa, onun aradan qaldırılması üçün Qida Təhlükəsizliyi Agentliyinə telefon açırsan, bu barədə məlumat verirsən. Həmin ərazini yoxlamaq üçün müəyyən bürokratik baryerdən keçmək tələb olunur. Məsələn, Ədliyyə Nazirliyindən icazə alınmalıdır və sair.

Biz başa düşürük ki, sahibkarların yoxlanılması ilə bağlı Azərbaycan dövləti çox önəmli qərar qəbul edir. Sahibkarların yoxlanılmasının məhdudlaşdırılması ilə bağlı siyasətimiz özünü doğruldur. Amma qida sənayesi ilə bağlı mənə belə gəlir ki, bu rejimə yenidən baxmaq lazımdır və burada çeviklik təmin olunmalıdır.

Digər bir tərəfdən, bu gün statistika göstərir ki, bir çox hallarda keyfiyyətsiz, yaxud da təhlükəli qidalar sərhədi keçərək Azərbaycana daxil olur. Ona görə də yaxşı olardı, necə ki, biz hava limanında agentliyin bir strukturunu yaratmışıq, yəni təhlükəsizliyi təmin edəcək, qidanın təhlükəsizliyini yoxlaya biləcək qurumların da strukturu, eyni zamanda, quru və su-sərhəd keçidlərində də quraşdırılsın. Hesab edirəm, vacibdir ki, ilk mənbədən bu məsələyə münasibət bildirilsin.

Sonda iki məsələni diqqətinizə çatdırmaq istərdim. Bilirsiniz ki, "Qida təhlükəsizliyi haqqında" Qanunun 25-ci maddəsinə görə, genetik modifikasiya olunmuş yemlərlə qidalandırılan heyvandarlıq və quşçuluq təsərrüfatında istehsal olunan əmtəələrin etiketində yemin məhz genetik modifikasiyanın dəyişdirilməsi ilə bağlı hər hansı bir məlumat yoxdur. Bu məlumatın verilməsi də çox önəmlidir ki, istehlakçı bunu bilsin. Bu yemlərlə qidalanan hər hansı bir ya heyvandarlıq məhsulu, ya toyuqçuluqla bağlı məhsullar hansı təhlükəni törədə bilər, bunu bizim istehlakçı da bilməlidir.

Hörmətli xanım sədr, mən düşünürəm ki, bəlkə qida təhlükəsizliyi ilə bağlı müvafiq dövlət strukturu ildə bir dəfə parlamentdə məlumat versin. Çünki yenə deyirəm, bu bizim hamımız üçün çox önəmlidir. Bu sahədə görülən işlər, təhlükələr, qarşıda duran vəzifələr... Mən əminəm ki, burada hər bir millət vəkilinin bununla bağlı sualı olacaq. Çünki biz seçicilərlə təmasdayıq. Vətəndaşların hüquqlarının qorunması ilə bilavasitə, ümumən, mandatımız bu istiqamətdədir. Qida təhlükəsizliyinin yaradacağı, yaratdığı fəsadlara yavaş ölüm də deyirlər. İnsan bəzən onu hiss etmir. Zatən zəhərlənəndən sonra biz qida təhlükəsizliyinə daha çox diqqət yetiririk. Amma bunun səhhətimizə nə qədər zərər vurduğuna biz bir çox hallarda tam fərqinə vara bilmirdik. Amma vəziyyəti tam şəkildə parlament nəzarətinə götürmək lazımdır və aidiyyəti qurumlar bu barədə bizə, heç olmasa, ildə bir dəfə məlumat verməlidir. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Necə?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Təklif var, 5 dəqiqəyə keçək. Razısınızsa, olsun.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Fəzail Ağamalı. Buyurun.

**F.Ağamalı**. Təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli həmkarlar, təqdim edilən qanun layihəsi olduqca ciddi əhəmiyyət kəsb edir. Çünki qida təhlükəsizliyi millətin genetik kodunun qorunub saxlanmasına, onun təhlükəsizliyinə və sağlamlığına xidmət edən ciddi bir sahədir. Digər tərəfdən, qida təhlükəsizliyi həm də Azərbaycan dövlətinin digər dövlətlərdən, ölkələrdən asılılığının azalmasına xidmət edən mühüm şərtlərdən biridir. Etiraf edək ki, təxminən 4-5 il bundan öncə Qida Təhlükəsizliyi Agentliyinin yaranması ciddi bir hadisə kimi cəmiyyətimizdə qəbul olundu. Bu, artıq özünün peşəkar fəaliyyətini ortalığa qoymaqdadır. Biz standartların hazırlanması və tətbiqində sistemli addımların atılmasını görürük və tamamilə əminəm ki, bu sistemli, peşəkar fəaliyyət Qida Təhlükəsizliyi Agentliyinin öz işini daha yüksək səviyyədə, daha səmərəli şəkildə qurmağa tam imkan yaradacaqdır.

Qida təhlükəsizliyinin yaranmasının ən mühüm sahəsi kənd təsərrüfatıdır və kənd təsərrüfatında fermer təsərrüfatlarının müasir texnologiyaya uyğun olaraq qurulmasıdır, kənd təsərrüfatı ilə bağlı emal müəssisələrinin yaradılmasıdır və onların ən yüksək standartlara uyğun məhsulların istehsalıdır. Təbii ki, qida təhlükəsizliyi bu baxımdan özünün səlahiyyətləri çərçivəsində məsələləri həll etməyə çalışır. Biz bunun nəticələrini də yüksək qiymətləndiririk.

Bu gün qida təhlükəsizliyinin yüksək səviyyədə hazırlanması ənənəvi yanaşmadan çıxaraq müasir texnologiya üzərində qurulmasını yeni çağırış kimi ortaya qoyur. Yəni artıq Azərbaycan XXI əsrdədir, biz XX əsrin içərisində

olduğumuz o ənənəvi becərmə, ənənəvi fermer təsərrüfatlarının fəaliyyətindən birdəfəlik olaraq çıxmalıyıq. Bütün dünyada olduğu kimi, fermer təsərrüfatlarının ən uğurlu fəaliyyəti onun müasir texnologiyaya söykənərək öz fəaliyyətini davam etdirməsidir. Məsələn, son vaxtlar Azərbaycanda suvarma sisteminin qurulması bu baxımdan diqqəti cəlb edir. Bu, məhsuldarlığı da artırır, eyni zamanda, onun keyfiyyətinə də müsbət təsir göstərir və qida təhlükəsizliyinin təmin olunmasında öz töhfəsini verir. Lakin digər sahələrdə bu, yoxdur. Heyvandarlığın inkişafı ilə bağlı müasir texnologiyanın güzəştli tətbiqini, güzəştli yollarla heyvandarlıq sahəsinin inkişafında görmürük. Deyək ki, bu, arzuladığımız səviyyədə deyil. Ona görə də mənə elə gəlir ki, bu sahəyə xüsusi diqqət verilməlidir və bu, qida təhlükəsizliyimizə əhəmiyyətli töhfəsini verməlidir. Çünki heyvandarlıqda həm ət və ət məhsulları, həm də süd və süd məhsulları Azərbaycan vətəndaşları üçün, yəni onun qidasında mühüm komponentlər kimi vacib əhəmiyyət kəsb edir.

Digər bir tərəfdən, müasir fermer təsərrüfatlarının qurulmasında, emal müəssisələrinin yaradılmasında enerji daşıyıcılarının tətbiqi də vacib əhəmiyyət kəsb edir. Etiraf edək, bu gün enerji daşıyıcılarının qiymətinin hədsiz dərəcədə yüksək olması, xüsusi olaraq təbii qazın emal müəssisələrində, ayrı-ayrı fermer təsərrüfatlarında tətbiqi elə bir səviyyədədir ki, bu fermer təsərrüfatları, emal müəssisələri faktiki olaraq öz fəaliyyətini qura bilmirlər. Əgər araşdırmalar aparılsa, biz Azərbaycanın bir neçə rayonunda – Xaçmazda, Göyçayda, Şəmkirdə bu halın ağır nəticələrini görə bilərik. Həm də belə bir sual yaranır: Necə olur ki, vaxtı ilə Şəmkirdə böyük təsərrüfat sahibləri olan o fermerlər, istixanaları quranlar indi artıq Rusiyanın

cənub rayonlarında bu təsərrüfata rəhbərlik edirlər və öz vəsaitlərini orada sərf edirlər? Qaz hədsiz dərəcədə baha olduğu üçün fermer təsərrüfatları çökmək üzrədir. Mən təklif edərdim ki, Tarif Şurası bu məsələyə də baxsın. Bu, əhəmiyyətli olardı. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Sabir Rüstəmxanlı. Buyurun.

**S.Rüstəmxanlı.** Təşəkkür edirəm. Mən təklif olunan bu variantı oxudum və öz dilimizdə açmasını düşündüm. Bunun mənası nədir? Bunun mənası belədir ki, əgər bazara, satışa çıxarılan qida məhsulları icra hakimiyyəti və o bazarı idarə edənlər tərəfindən bəyənilmirsə, onda o məhsulları verən müəssisələrin fəaliyyətinə son qoyulur: onlar qeydiyyata alınmır, onların malı da alınmır. Bizim dilimizdə bu, belədir. Mən hesab edirəm ki, bu, müəyyən qüvvələrin bazara və qida məhsullarının satışa çıxarılmasına nəzarəti gücləndirir, yenə də monopoliyanı artırır və yenə də ziyan o qidanı istehsal edən kəndliyə, o qidanın alındığı Azərbaycan müəssisələrinə dəyəcək. Bunun müqabilində xaricdən ölkəmizə gələn və gətirilən mallara nə qədər nəzarət edilir? Söhbət bundan getmir. Bu gün Azərbaycanda ən böyük qida təhlükəsizliyindən danışanda ən böyük qorxu nədir? Böyük ticarət şəbəkələri var. Dünya qida sənayesini idarə edən böyük şirkətlər tərəfindən istehsal olunan və dünyanın hər yerinə, o cümlədən Azərbaycana göndərilən məhsullar var. Narkotikdən qorxuruq, dünyanın hər yerində narkotik vasitələr ciddi təhlükədir, Azərbaycanda da gənclərin bir qismini, təəssüf ki, sıradan çıxardır. Amma başqa bir narkotik mənbə var. Böyük marketlərin, ticarət obyektlərinin satdığı, brend adlanan fantalar, koka-kolalar var. Şəbəkələr var ki, bilmirsən, məhsullara nə qatırlar. Onlar da vərdiş yaradır və o vərdişdən uşaqlarımızı xilas edə bilmirik. Evdə xörək

bişirilir, deyirsən, bunu ye. Yox, gərək mənim üçün kənardan, – adlarını da deyə bilmirəm, – filan yeməyi alıb gətirəsən. Onun içində nə var? Niyə o uşaqları cəlb edir? Niyə camaatı cəlb edir? Bu daha ciddi təhlükədir? Mən hesab edirəm ki, qida təhlükəsizliyi baxımından biz bunu düşünməliyik.

Doğrudan da, genetik tərkibi və genetik quruluşu dəyişdirilmiş, genləri dəyişdirilmiş... İndi Çində süni yolla yumurta da istehsal edilir. Rusiyanın da yumurtası yoxdur, yəqin o süni yumurtadan da alıb gətirirlər. Hər şeyi süni yolla istehsal edirlər. Azərbaycanın bundan qorunmağa imkanı var. Kəndimiz var, ənənəvi təsərrüfatlar var, özümüzün istehsal etdiyimiz çox gözəl məhsullar var. Kolxoz bazarlarına gətirib satırdılar. Kolxoz bazarları da sıradan çıxır. Bir-ikisi Bakıda qaldı. Onları başqa satış müəssisələri əvəz edir. Bu məni bir vətəndaş olaraq ciddi şəkildə narahat edir. Bu narahatlığımı burada demək istəyirəm. Konkret olaraq heç kimi, heç bir müəssisəni nəzərdə tutmuram. Amma hesab edirəm ki, ölkənin gələcəyi bir çox amillərlə yanaşı, həm də bu məsələlərdən asılıdır. Niyə Azərbaycanın öz brendləri yaranmasın? Niyə öz məhsullarımızın dünya miqyasına çıxarılan müəyyən növləri yaranmasın? Şərabımız var, konyakımız var, üzüm var, nar var və sair. Bunlar Azərbaycanın daxilində dövr edir. Amma biz bunların heç birini kənara çıxara bilmirik. Kənardan gəlir. Dağlarımızda su var. Su mağazalarına dünyanın hər yerindən, Fransadan da su gəlir, amma öz sularımız havayı axıb gedir. Məncə, bu barədə düşünmək lazımdır. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Tahir Kərimli. Buyurun.

**T.Kərimli**. Təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli deputatlar, doğrudan da, bu, çox ağrılı bir məsələdir.

14 ildən artıqdır ki, biz Ümumdünya Ticarət Təşkilatının üzvü deyilik. Bu, bəzən bir yandan narahatlıq doğurursa, digər yandan, mən şükür edirəm ki, nə yaxşı, deyilik. Dünyada geni dəyişdirilmiş, modifikasiya olunmuş məhsulların, demək olar ki, mütləq əksəriyyəti bu təşkilat vasitəsi ilə ölkələrə daxil olur və Azərbaycana da daxil ola bilir. Ancaq biz görürük ki, xaricdən idxal olunan məhsulların içərisində, deyək ki, tumsuz pomidor, bibər, qarpız və digər məhsullar var. Yaxşı, biz bu təşkilatın üzvü deyiliksə, bu necə olur? Məlum olur ki, bunların çoxu Türkiyədən bizə idxal olunur və Türkiyədə də Manisa Tır şirkəti var. Elə bu işlə məşğuldur. Azərbaycanda isə, səhv etmirəmsə, qida təhlükəsizliyinə baxan 3 laboratoriya var. Elə bil ki, su bulandırır, partizanlıq edirlər. Bu məsələlərdə bir şey yoxdur. Məsələ ondan ibarətdir ki, Azərbaycanda satılan kənd təsərrüfatı məhsullarının hamısının üzərində geni modifikasiya olunma barədə məlumatlar öz əksini tapmalıdır. Laboratoriya analizlərinin cavabı verilməlidir. Burada çoxlu misallar gətirildi. Kənd təsərrüfatı deyil, digər məhsullar da genetik modifikasiya olunmuşdur. Bəzən belə məsələ deyirlər ki, indi heç kim acından ölmür, kifayət qədər ərzaq var, Afrikada belə acından ölmürlər və sair. Doğrudur, indi məhsullar çoxalıb. Nəyin hesabına? Həmin modifikasiya olunmuş məhsulların hesabına çoxalıb. Dünyada istehsalı 5 dəfə, 10 dəfə çoxalıb. Düzdür, insanlar da, ola bilsin, bir az çox yaşayır. Amma necə yaşayır? Xəstə yaşayır. Bütün insanların 90 faizi modifikasiya olunmuş bu məhsulların qəbuluna görə lap uşaqlıqdan axıra kimi xəstə olur. Müəyyən orqanları sıradan çıxır. Ömür boyu da dərmanlar qəbul etməyə başlayırlar ki, bunların sağlamlığını necə qoruyub saxlasınlar. Sürünə-sürünə yaşayırlar. Sağlam həyat şəraiti deyil. Mən

bilirəm, Azərbaycanda qida təhlükəsizliyini qoruyan, istehlakçıların hüquqlarını müdafiə edən cəmiyyətlər də var. Onlar çapalayırlar, vuruşurlar. Ekoloji təmiz məhsul buraxılmasına, onların qeydiyyatına qədər maneələr olur, onu da bilirəm.

Bu yaxınlarda yenə eşitmişəm ki, İqtisadiyyat Nazirliyinə müəyyən qanun layihəsi təqdim olunub. Elə bir qanun layihəsi hazırlanıb ki, Azərbaycanda geni dəyişdirilmiş, modifikasiya olunmuş və ya hibrid məhsulların istehsalına, ya istehlakına imkan verilsin. Mən bunu mətbuatda oxumuşam, bilirəm. Bir neçə belə təhlükə var və bundan çəkinsinlər. Azərbaycan xalqı sağlam yaşamalıdır.

Mən 10 il bundan əvvəl kənd təsərrüfatı nazirinin özündən eşitmişəm ki, Türkiyədə, bir dənə də olsun, geni dəyişdirilmiş məhsul tapmaq mümkün deyil. İndi bizə baxırıq. Gədəbəydə kartofu kəsirsən, hamısının içərisindən su çıxır. Deməli, bu, kartof deyil də, geni dəyişdirilib və bu adla gətirib Bakıda satırlar. Soğan, xalqın kütləvi istehsal etdiyi pomidor, xiyar və bütün məhsullar, hətta taxıl – hər şeyin geni dəyişdirilib.

İki il bundan əvvəl bu məsələ, kənd təsərrüfatı haqqında müəyyən qanun müzakirə olunanda, mən demişdim ki, geni dəyişdirilmiş yem məhsulları heyvanlara yedizdirilir. Biz çox dövlətlərdə əgər belə hallar varsa, o biri heyvanların südündən, ətindən istifadə olunmur. Çünki onlar genetik modifikasiya olunmuş mitoxondri quruluşlarıdır. Bildiyimə görə, genetik quruluşlar, – tibb sahəsinin geoloqları yaxşı bilir, – məhsullara da keçirlər, öz bədənlərində, onların məhsullarında öz əksini tapırlar və məhsullar keyfiyyətsiz hala düşürlər. Deməli, biz Azərbaycan xalqını başdan-ayağa xəstə etməyə çalışırıq?

Azərbaycan Respublikası Prezidentinin müvafiq fər-

manları var. Müəyyən beynəlxalq protokol da var. Bunlara riayət etmək lazımdır. Azərbaycan əhalisini bu geni dəyişdirilmiş, zəhərli, öldürücü məhsullardan xilas etmək lazımdır. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, mən qanun layihəsini səsə qoyuram. Tahir müəllim, əlinizi qaldırmısınız. Buyurun.

**T.Rzayev**. Hörmətli sədr, burada mənim deputat həmkarlarım müəyyən məsələlər qaldırdılar. Bunlar köklü məsələlərdir və bir çoxları qanunun predmetinə uyğun deyil. Əlbəttə ki, bu qaldırılan məsələlər faktlarla əsaslanmalıdır. Çünki elə sözlər deyilirdi ki, guya burada heç bir yoxlamalar aparılmır, laboratoriyalar, ya institut yoxdur. Azərbaycanda qida təhlükəsizliyi haqqında çox böyük bir institut var. Mən xahiş edirəm, bu yoldaşlar getsinlər, ora baxsınlar. Orada dünyanın ən müasir cihazları var. Biz deputatlar, komitənin üzvləri bu gün getdik, tanış olduq. Düzü, o qədər məəttəl qaldıq ki. Bir anın içində milyonlarca maddə üzərində əməliyyat aparıla bilir. Çox bahalı cihazlardır. Orada 700-dən artıq əməkdaş işləyir. Bu cihazların hamısı dünya standartlarına uyğundur.

Digər tərəfdən, bütün keçid məntəqələrində, bazarlarda, böyük bazarlarda qida təhlükəsizliyi ilə əlaqədar laboratoriyalar var. Ora gələn məhsullar yoxlanılır. Bu, həqiqətdir ki, bəzi adamlar saxta yollarla məhsullar gətirirlər, bəzən kustar vəziyyətdə istehsal olunmuş məhsullar da var. Bu da zəhərlənməyə səbəb olur. Burada da elə danışıldı ki, guya bu hökumət adamların düşmənidir. Elə məhsul yoxdur ki, onun genində müəyyən əlavələr olmasın. Harada isə kartof əkilirsə, ona müəyyən gübrələr, minerallar verilir. Ancaq "Qida təhlükəsizliyi haqqında" Qanunun müzakirəsində də aydın göstərildi ki, bu, insanların

səhhətinə, heyvanların sağlamlığına ziyan vurursa, birmənalı olaraq qadağan olunur. Amma tərkibdə müəyyən maddələr ola bilər.

Burada da qanunun əsas mahiyyəti çox vacibdir. Mən sadə dillə deyim: qida obyekti var, qida obyekti fəaliyyət göstərir. Ancaq burada quraşdırılmış avadanlıqlar var, bunlar uyğunsuzdur, o standartlara cavab vermir və zay məhsul istehsal edir. Belə olan halda müvafiq orqan tərəfindən həmin müəssisənin işləməsinə 1 ay müddətinə qadağa qoyulur. 1 ay müddətində bu uyğunsuzluq aradan qaldırılmalıdır. Mahiyyət bundadır. Başqa bir şey yoxdur. Çox sağ olun.

**Sədrlik edən.** Tahir müəllim, çox sağ olun. Mən tövsiyə edirəm, belə xarakterli qanun layihəsi olanda Siz giriş sözünüzü daha geniş verin. Dediyiniz bu sözlər Sizə bir preambula kimi yenə də xatırlatma olsun ki, qida təhlükəsizliyi məsələsi ilə bağlı bu gün Azərbaycanda nə qədər ciddi işlər aparılır. Təbii ki, həmin təşkilat çox ciddi bir təşkilatdır. Siz deyirsiniz, bir dəfə olmusunuz. Xahiş edirəm, bir dəfə də təşkil edin, Tahir müəllim də ora getsin, hansısa şübhəsi olan insanlar da, bizim hörmətli həmkarlarımız da getsinlər, görsünlər. Xahiş edirəm, bunu təşkil edin.

İndi isə, hörmətli həmkarlar, mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.02 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Hörmətli həmkarlar, bəli, yaxşı xatırlatdınız. Əslində, həmkarlarımızla danışmışdıq ki, fasiləsiz işləyək. Təklif var, siz tərəfdən... Fasiləsiz?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Fasiləsiz işləyirik.

Hörmətli həmkarlar, gündəliyin 8-ci məsələsinə keçirik. Bu məsələ Mülki Prosessual Məcəllədə, Ailə Məcəlləsində və "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin sədri, Milli Məclis sədrinin birinci müavini hörmətli Əli Hüseynliyə söz verirəm. Əli müəllim, buyurun.

**Ə.Hüseynli,** *Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri.*

Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli həmkarlar, bildiyiniz kimi, qanunvericiliklə azyaşlıların hüquqlarının müdafiəsi, o cümlədən məişət zorakılığının qurbanlarının müdafiəsi həm də prokuror orqanlarına tapşırılmışdır. Amma mülki prosessual qanunvericilikdə onlar bu məsələlərin müdafiəsi ilə bağlı məhkəməyə müraciət edərkən onların bu hüquqları qeyd olunmamışdır. Ona görə də məhkəmələr bəzən bu işlərə baxmırlar. Məhz bu qanun layihəsi ilə faktiki olaraq hər 3 qanun layihəsinin mahiyyəti ondan ibarətdir ki, prokurorluğun da belə bir səlahiyyəti olsun, bu iddia ilə məhkəməyə müraciət etsin və uzunmüddətli mühafizə orderi ilə də bağlı müraciət edə bilsin.

Hesab edirik ki, dəfələrcə parlamentdə bu mövzular qaldırılmışdır. Həm azyaşlıların hüquqlarının müdafiəsi, həm də məişət zorakılıqlarının qurbanlarının müdafiəsi

üçün bu qanun layihələri çox vacibdir. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim. Həmişə olduğu kimi, dolğun məlumat verildi. Hicran xanım, sizin komitədə də baxılıb. Mən sözü hörmətli Hicran xanım Hüseynovaya verirəm. Buyurun.

**H.Hüseynova,** *Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri.*

Məncə, Əli müəllim çox ətraflı məlumat verdi. Orada balaca bir yenilik, qanun layihəsində prokurorluqla bağlı əlavələr var. Bizim də komitəmizdə baxılıb və rəy müsbətdir. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Hicran xanım. Hörmətli həmkarlar, İnsan hüquqları komitəsində baxılıb. Bu gün komitənin rəyini Bəhruz Məhərrəmov bildirəcək. Bəhruz müəllim, buyurun.

**B.Məhərrəmov,** *Milli Məclisin İnsan hüquqları komitəsinin üzvü.*

Çox sağ olun. Komitə lehinədir, səsə qoyulmasını xahiş edirik.

**Sədrlik edən.** Çox sağ olun. Çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.05 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin son 2 məsələsi ikinci oxunuşda olan qanun layihələridir. Onu da qeyd edim ki, bu məsələlər möhtərəm cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub. Məzmun və mahiyyətcə də bir-birinə yaxındırlar.

9-cu məsələ "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanunda dəyişiklik edilməsi barədə, 10-cu məsələ isə Mülki Prosessual Məcəllədə, digər 2 məcəllədə və 2 qanunda dəyişiklik edilməsi barədə qanun layihələridir. Hörmətli həmkarlar, həmişə olduğu kimi, təklif edirəm, qanun layihələrinin təqdimatları ayrılıqda edilsin, müzakirə bir yerdə, səsvermə həmişə olduğu kimi ayrılıqda keçirilsin.

9-cu məsələyə Ailə, qadın və uşaq məsələləri komitəsində baxılmışdır. Mən indi hörmətli Hicran xanımdan xahiş edəcəyəm ki, məlumat versin. Hicran xanım, buyurun.

**H.Hüseynova.** Çox sağ olun, xanım sədr. İcazə verin, mən də Sizin və həmkarlarım tərəfindən deyilən bütün təbriklərə qoşulum. Yaz sessiyasının başlanması ilə hamını ürəkdən təbrik edirəm, hamıya uğurlar arzulayıram.

Hörmətli xanım sədr, bildiyimiz kimi, payız sessiyasının son plenar iclasında "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının qanun layihəsi birinci oxunuşda müzakirə edilmişdir. Mən bir daha layihə ilə bağlı çıxış edən, öz fikir və rəylərini bildirən deputat həmkarlarıma təşəkkür edirəm. Əlbəttə ki, məişət zorakılığı hallarının qarşısının alınması hər birimizi düşündürən bir məsələdir. Vaxtı ilə Ulu Öndər Heydər Əliyev deyirdi: "Bir hadisənin qarşısını almaq onun nəticələrini aradan qaldırmaqdan daha asandır". Məişət zorakılığı qadınlar, uşaqlar, ailələr və bütövlükdə,

cəmiyyət üçün ağır fiziki, emosional, iqtisadi və sosial fəsadlar yaradır. Bunların sırasında ailə üzvlərinin, xüsusi ilə də qadın və uşaqların sağlamlığına vurulan zərər, onların psixi, psixoloji və fiziki sağlamlıqlarında problemlərin yaranması, qadınların əmək fəaliyyətində fasilənin yaranması, yaxud əmək qabiliyyətinin itirilməsi, uşaqların təhsil göstəricilərinin aşağı düşməsi, boşanma səviyyəsinin artması, qohumlararası münasibətlərin pisləşməsi və digər təsirləri də göstərmək olar. Bir çox hallarda bu hadisələrin nəticələri o qədər ağır olur ki, bunları aradan qaldırmaq mümkün deyil.

Günümüzdə baş verən zorakılıq halları və bununla bağlı mövcud qanunların praktik tətbiqi zamanı yaranmış çətinliklər bir sıra əlavə və dəyişiklikləri aktuallaşdırır. Birinci oxunuşda ətraflı məlumat verilib, mən onları təkrar demək istəmirəm, amma ehtiyac olsa, sonra suallara cavab verə bilərəm. Bizim komitədə bu məsələyə çox ətraflı baxılıb və ikinci oxunuşda plenar iclasa tövsiyə edilib. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. İnsan hüquqları komitəsində baxılıb. Bəhruz müəllim, xahiş edirəm, yenə də komitənin adından rəy bildirin.

**B.Məhərrəmov.** Komitə lehinədir.

**Sədrlik edən.** Çox sağ olun. Əli müəllim, sizin də komitənizdə baxılıb. Siz də, xahiş edirəm, məlumat verin.

**Ə.Hüseynli.** Hörmətli xanım sədr, Hüquq siyasəti və dövlət quruculuğu komitəsi də lehinədir.

**Sədrlik edən.** Əli müəllim, 10-cu məsələ də sizdədir. Siz elə indidən 10-cu məsələyə münasibət bildirin.

**Ə.Hüseynli.** Çox sağ olun, xanım sədr. 10-cu məsələ, – hörmətli Hicran xanımın elə fikirlərinin davamı olaraq söyləyim, – çox pozitiv bir məsələni həll edir. Təklif on-

dan ibarətdir ki, zərərçəkənlər dövlət hesabına maliyyələşsin, yəni onlara dövlət hesabına hüquqi yardım göstərilsin. Nəhayət, İnzibati Xətalar Məcəlləsində də qeyd olunur ki, əgər həmin əməl təkrar törədilərsə, daha sərt cəza tətbiq olunsun. Hesab edirəm ki, həqiqətən də, bu gün söylədiyimiz fikirlərin ruhuna tam uyğundur. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim. 10-cu məsələ sırf sizin komitənizin məsələsi idi. Ancaq bu 10-cu məsələyə daha 2 komitə də baxıb. O komitələrdən biri, Bəxtiyar müəllim, Elm və təhsil komitəsidir. Xahiş edirəm, komitənin sədri kimi rəy bildirin.

**B.Əliyev,** *Milli Məclisin Elm və təhsil komitəsinin sədri.*

Hörmətli xanım sədr, hörmətli deputatlar. Qanun layihəsinə birinci oxunuşda həm komitədə, həm də Milli Məclisin plenar iclasında baxılıb, geniş müzakirə olunub. Qanun layihəsi komitədə də geniş müzakirə olunub. Heç bir əlavə və dəyişiklik yoxdur. Komitə qanun layihəsinin lehinədir. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Bəxtiyar müəllim. Hicran xanım, bu məsələyə sizin komitədə də baxılıb. Siz də 10-cu məsələ ilə bağlı rəy bildirin.

**H.Hüseynova.** Əli müəllim də, Bəxtiyar müəllim də birinci oxunuşda çox ətraflı məlumat verdilər, bizim tərəfdən də müzakirə olunmuşdur. Tövsiyə olunur ki, ikinci dəfə də bu qəbul olunsun.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, ikinci oxunuşdur, ona görə də biz qanun layihələrini əsas kimi qəbul etməliyik. Mən sizdən xahiş edirəm, 9-cu məsələdə olan qanun layihəsini əsas kimi qəbul etməyə münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.11 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, əsas kimi qəbul edildi.

İndi isə, xahiş edirəm, 10-cu məsələdə olan qanun layihəsinə əsas kimi münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.11 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Bu qanun layihəsi də əsas kimi qəbul edildi.

Biz indi müzakirəyə keçirik. Yazılanlar var. Ancaq xatırladıram ki, ikinci oxunuşdur. Xahiş edirəm, ikinci oxunuşun tələblərinə görə çıxışlarınızı qurun. Elşad Mirbəşir oğlu. Buyurun.

**E.Mirbəşir oğlu.** Təşəkkür edirəm, xanım sədr. Hörmətli deputatlar, mən də yaz sessiyasının başlaması münasibəti ilə təbrik edirəm, səmərəli fəaliyyət arzulayıram.

Bildiyimiz kimi, qadınlara münasibətdə həyata keçirilən siyasət bir qayda olaraq fiziki imkanları məhdud olan insanların maraqlarını əhatə etmir, yaxud da fiziki imkanları məhdud olan şəxslərlə bağlı həyata keçirilən siyasət bir qayda olaraq gender məsələlərini ifadə etmir. Bu da

kifayət qədər acı nəticələri göz önünə qoyur. Nəzərə almaq lazımdır ki, bu gün dünyada 700 milyondan artıq əlilliyi olan qadınlar və qızlar mövcuddur. Bu o deməkdir ki, dünya üzrə qadınlar arasında əlillik təxminən 19-20 faiz təşkil edir. Kişilər arasında isə bu göstərici təxminən 12 faizə bərabərdir.

Başqa bir acı reallıq da ondan ibarətdir ki, əlilliyi olan qadınlar və qızlar digər şəxslərlə müqayisədə 7-8 dəfə artıq fiziki məişət zorakılığına məruz qalırlar və onları ictimaiyyələşdirmək imkanları da kifayət qədər məhdud olur. Belə olan halda, təbii ki, bu məişət zorakılığının qarşısının alınması imkanları baxımından həm hüquqi mexanizmlər işləmir, həm də insan hüquqlarının qorunması təmin edilmir.

Biz, ümumiyyətlə, diqqət yetirsək, görərik ki, dünya miqyasında dövlətlərin böyük əksəriyyəti fiziki imkanları məhdud olan vətəndaşlar qarşısında götürmüş olduqları öhdəlikləri yerinə yetirə bilmirlər. Ona görə ki, bu istiqamətdə qanunvericilik bazası çox zəifdir. Başqa bir statistika da ondan ibarətdir ki, əlilliyi olan qadınlar və qızların təxminən 40 faizdən 68 faizə qədəri 18 yaşına çatana kimi cinsi zorakılığa məruz qalırlar və əksər hallarda da cəzasızlıq şəraiti hökm sürür. Ona görə də mən təklif edərdim ki, qanunun 16-cı maddəsinə əlavə bir bənd də əlavə edilsin. Çünki mahiyyət etibarı ilə 16-cı maddə buna imkan verir. Orada məişət zorakılığı ilə bağlı qabaqlayıcı addımların atılması məsələləri öz ifadəsini tapıb. Hesab edirəm ki, yüksək mədəniyyətə və qarşılıqlı hörmətə əsaslanan ailə münasibətlərinin təbliği ilə yanaşı, əlavə olaraq fiziki imkanları məhdud olan qadınların və qızların hüquqlarının qorunması istiqamətində də təbliğatın aparılması çox vacibdir. Fiziki imkanları məhdud

olan qadınların və qızların məişət zorakılığından qorunması istiqamətində hüquq çox da işlək vəziyyətdə deyil. Söhbət Azərbaycan Respublikasından deyil, dünya səviyyəsindəki mənzərədən gedir. Hesab edirəm ki, Azərbaycan qanunvericilik səviyyəsində bu istiqamətdə ilk addım atan ölkələr sırasında ola bilər. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Aydın Hüseynov. Xahiş edirəm, buyurun.

**A.Hüseynov.** Mənim fikirlərim 10-cu məsələ ilə bağlıdır – ikinci oxunuşun tələblərinə uyğun olaraq. 10-cu məsələnin 19-cu maddəsində belə bir ifadə var: "Zorakılığın qurbanı olan" ifadəsi əvəzinə "zorakılığa məruz qalan" ifadəsi işlənsə, daha dəqiq olar. Çünki "qurbanı olan" ifadəsi məcazi mənadır, eyni zamanda, bu ifadə həm də həyatda olmama kimi başa düşülür.

İkinci bir təklifim nədən ibarətdir? Çox hörmətli Əli müəllim bayaq qeyd etdi. Qanunun mahiyyəti ondan ibarətdir ki, zərər çəkmiş, zorakılığa məruz qalan şəxs pulsuz vəkillə təmin olunur. Bu da dövlət qayğısıdır. Ancaq burada bir ifadə var: "zərər çəkmiş şəxs tələb etdikdə". Bəlkə tələb etdikdə deyil, ümumiyyətlə, tələb etməsə belə həmin zərər çəkmiş şəxs pulsuz vəkillə təmin olunsun. Fikirlərim bundan ibarətdir. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Aydın müəllim. Mən başa düşmürəm, bu mövzu belə gülməli mövzudur?.. Etibar Əliyev. Buyurun.

**E.Əliyev.** Çox hörmətli Sahibə xanım, hörmətli deputatlar. 10-cu məsələdə "Təhsil haqqında" Qanunda ediləcək dəyişiklik belədir: "ümumi peşə orta ixtisas və ali təhsil pillələrində tədris olunan müvafiq fənn və dərsdənkənar məşğələlərin məzmununda təhsil alanların yaş xüsusiyyətləri nəzərə alınmaqla qarşılıqlı hörmətli, qarşılıqlı

yardım, mübahisələrin qeyri-zorakılıq yollarla həlli, gender bərabərliyi və şəxsiyyətlərarası münasibətlərə dair mövzular daxil edilir”.

İndiki dövrdə düşüncəmə görə, bu dəyişikliyin həyata keçirilməsi belə sadə məsələ olmayacaq. Nə üçün? Məsələn, orta ümumtəhsil məktəblərinin 11-ci sinfində 19 fənnin tədrisi nəzərdə tutulub. Həyat bilgisi fənni 10-11-ci siniflərdə tədris olunmur. 7-ci, 8-ci, 9-cu siniflərdə həftədə 1 saat nəzərdə tutulur. 10-11-ci siniflərdə sinifdənkənar məşğələlərə cəmi 2 saat vaxt ayrılır. Bu mövzuları bu vaxta sığışdırmaq da qeyri-mümkündür. Problemin həlli yolu ali məktəblərdə fəlsəfə və psixologiya fənninin saatlarını artırmaq və orta məktəblərdə fəlsəfənin tədrisini həyata keçirməkdən ibarət olmalıdır.

Təhsil sistemi inkişaf etmiş ölkələrdə orta məktəblərin yuxarı siniflərində məktəblər üçün fəlsəfə fənni tədris olunur. Bizdə fəlsəfə elminin gözdənsalma kampaniyası öz bəhrəsini verib. Ali məktəblərdə fəlsəfə fənninin saatları kəskin şəkildə azaldılıb. Hətta Bakı Dövlət Universitetində fəlsəfə fənni ixtisas kimi Sosial və psixologiya fakültəsinə daxil edilib. Bu, absurddur. BDU-da bütün qeyri-ixtisas fakültələrində fəlsəfə seçmə fənndir. Amma doktoranturada fəlsəfədən imtahan qalır. Gender mövzuları, əlbəttə ki, fənnlərarası yanaşma tələb edir. Bu, əsasən, fəlsəfə elminin tərkibində olmalıdır. Şagirdlər və tələbələrə maraqlı mövzular təqdim olunmalıdır. Əgər fəlsəfə və psixologiyanın saatları kəsin azaldılırsa, onda bu mövzuları kimlər təqdim edəcək?

Gender bərabərliyinə aid maraqlı bir faktı deyim. Biz bu faktı lazımi səviyyədə dəyərləndirməliyik. Bildiyimiz kimi, hər il ali məktəblərə yüksək balla daxil olan 102 tələbəyə cənab Prezidentin sərəncamı ilə Prezident tə-

qaüdü verilir. 2022–2023-cü tədris ilində Prezident təqaüdçüləri oğlanların sayı 53, qızların sayı isə 49 nəfər olub. 2023–2024-cü tədris ilində isə qızların sayı 56, oğlanların sayı 46 olub. Göründüyü kimi, cinslər arasında fərq bir o qədər böyük deyil. Ancaq ali məktəblər sonda bu istedadlıları seçdikləri ixtisas üzrə mütəxəssis kimi hazırlaya bilirlərmi? Əsas məsələ budur. Bundan sonra gender problemləri üzə çıxır və bundan sonra gender layihələri maliyyələşməyə başlayır.

Çox maraqlı gender tədqiqatları var. Hazırda dünyada "Steam" adlı  çox vacib bir kontentlə bağlı bizim orta məktəblərdə kabinetlər yaradılır. Milyonlarca manat vəsait xərclənir. "Steam" təbiət elmlərini və texnologiyanı, texniki yaradıcılığı və riyaziyyatı birləşdirən sahələrarası yanaşmadır, öyrətmədir. Bu vacib kontentdə qızların yeri nədən ibarətdir? Şəxsiyyətlərarası münasibətlər baxımından da bu tədqiqat maraqlıdır. Biz məktəblərdə qadınların sayının üstünlük təşkil etmələrindən bəzən narahat oluruq. Bu sahənin mütəxəssislərinin qənaətinə görə, qızlar riyaziyyatdan imtahan verərkən oğlanlarla eyni otaqlarda əyləşirlərsə, onlar cinslərinə aid stereotipləri xatırlayırlar. Məsələn, riyaziyyatdan imtahan verən qızlar oğlanlarla eyni otaqda otururlarsa, aşağı nəticələr göstərirlər. Ancaq qızlarla otururlarsa, daha yüksək nəticə göstərmiş olurlar. Bu, tədqiqatdır. Şifahi test imtahanlarında bu stereotip özünü göstərmir və belə çıxır ki, qadınların verbal qabiliyyətləri kişilərdən aşağıdır.

Digər tərəfdən isə, qızlar qadın müəllimlərlə təbiət elmləri və riyaziyyat üzrə imtahanlara daha yaxşı hazırlaşır və uğur qazanırlar. Çünki təcrübəli qadın müəllimlər artıq stereotipləri bilir və onu gözdən salırlar. Qız şagird ətrafında güclü riyaziyyat qadın müəllimini görəndə riyaziy-

yatdan ən çətin misalları həll etməkdə çətinlik çəkmir. Bu cür tədqiqatlar bizdə də aparılmalıdır və bu istiqamətdə mövzular işlənməlidir, bunun üçün fənni yaxşı bilən təbiət elmləri və riyaziyyat fənn müəllimləri gender bərabərliyinə fayda gətirə bilərlər.

Bu, olduqca mütərəqqi dəyişiklikdir və ikinci oxunuşda da bu dəyişikliyə səs verəcəyəm. Ancaq düşünürəm ki, bu cür problemlər var, bu problemləri aradan qaldırmaq üçün çalışmaq lazımdır. Təşəkkür edirəm, sağ olun.

**Sədrlik edən.** Etibar müəllim, sağ olun. Sizin qanuna hansı təkliflərimiz var? Çünki verdiyiniz təkliflər, əslində, ali təhsil haqqında qanunla bağlı təkliflərdir, elə deyilmi?

**E.Əliyev**. Hörmətli Sahibə xanım, ola bilsin, yaxşı anlaşılmadı. Yəni biz bu məzmunu hansı fənlərə daxil etməliyik? Axı, o fənlər yoxdur. O fənlər olmayan yerdə əgər fəlsəfəni seçmə fənn kimi tədris edirlərsə, biz ora əlavə hansı məzmunu əlavə edə bilərik? Hansı fənnin tərkibinə? Bunu fizikanın tərkibinə aid etmək lazımdır?

**Sədrlik edən.** Yox, fikriniz aydındır. Sadəcə, Siz təklif edin. Biz Sizə qulaq asdıq. Təkliflərin hamısı, Bəxtiyar müəllim, sizin komitənizə aiddir. Ali təhsil haqqında qanununa aiddir, ona sonra da baxmaq olar. Sırf bu gün biz bu qanun haqqında danışırıq. Aqil müəllim, buyurun.

**A.Abbas**. Təşəkkür edirəm, Sahibə xanım. Mənim sözüm məişət zorakılığı ilə bağlıdır. Qanuna səs verəcəyəm, yaxşı hazırlanmış bir qanundur. Amma 50 dənə belə qanun da qəbul etsəniz, bu zorakılığın qarşısını ala bilməyəcəksiniz. Səbəbini demək istəyirəm. Niyə? Avropa, müxtəlif fondlar külli miqdarda pul buraxırlar ki, Azərbaycan xalqının əxlaqını pozsunlar, ali əxlaq pozulsun. Nə qədər qanun qəbul ediriksə, edək, amma axşam saat 5-dən başlayaraq Azərbaycan özəl televiziyalarının 6-7 kana-

lında məişət zorakılığını təbliğ edəcəklər. Hamısı. Heç kəs də bunun qarşısını ala bilmir. Nə parlament, nə də Prezident Aparatı. Hər kanalda xeyrə bir-iki söz deyirlər, arxasınca ər-arvad arasında it boğuşdurma başlayır. Polisə gedəcək adamı televiziyaya gətirirlər ki, reytinq qazansınlar. Əsas məsələ budur, təbliğatdır, yoxsa ayrı bir şey deyil.

Ona görə xahiş edirəm ki, bu məsələ bir dəfə parlamentdə müzakirə olunsun. Həmin o zorakılığı, əxlaqsızlığı təbliğ etmək, ərini qoyub, ərinin qardaşı ilə qaçmaq – bu, Azərbaycanda istisna hallardır. Amma onu televiziyada təbliğ etmək... Başqası baxır, deyir, mənə nə olub, mən niyə Bakıya getməyim və sair. Hər gün baxanlar deyə bilər. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, biz qanun layihələrinə maddələr üzrə və sonra isə bütövlükdə münasibət bildirməliyik. 9-cu məsələ, yəni "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsində 11 maddə var. Mən onları üç-üç səsə qoyacağam. Beləliklə, 1-ci, 2-ci və 3-cü maddələrə, xahiş edirəm, münasibət bildirin, buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.25 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, maddələr qəbul edildi.

İndi isə 4-cü, 5-ci və 6-cı maddələrə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.25 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

Növbəti üç maddəyə, 7-ci, 8-ci və 9-cu maddələrə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.25 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

İndi isə 10-cu və 11-ci maddələrə də münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.26 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.26 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

10-cu məsələnin səsverməsinə keçirik. Mülki Prosessual Məcəllədə, digər iki məcəllədə və iki qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. 5 maddədən ibarətdir. Mən onların üçünü bir, ikisini bir qoyacağam. Buyurun, 1-ci, 2-ci, 3-cü maddələrə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.27 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

İndi isə 4-cü və 5-ci maddələri səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.27 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs verмədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Bu maddələr də qəbul edildi.

İndi isə mən qanun layihəsini bütövlükdə də səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.27 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, bununla da iclasımız başa çatdı. Hamıya təşəkkür edirəm. Növbəti iclasın vaxtı hamıya deyiləcək. Sağ olun.

# EDİLMƏMİŞ ÇIXIŞLARIN MƏTNLƏRİ

**Emin Hacıyev.** Azərbaycan Respublikasının möhtərəm Prezidenti cənab İlham Əliyev dünya liderləri arasında peşəkar siyasətçi, görkəmli dövlət xadimi və dövlət başçısı kimi böyük nüfuza malikdir. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş və hazırda cənab Prezident İlham Əliyev tərəfindən çox böyük uğurla davam etdirilən siyasi kurs, sosial və iqtisadi inkişaf yolu Azərbaycan xalqının rifahına və işıqlı gələcəyinə daim xidmət etmişdir. Məqsədyönlü xarici və daxili siyasətimiz nəticəsində Azərbaycan nəinki regionumuzda, regionumuzdan daha böyük coğrafiyada lider ölkəyə çevrilmişdir. Son 20 ildə qazanılan uğurlar, əldə olunan nailiyyətlər dövlət başçımızın siyasətinə alternativin olmadığını bir daha sübut etmişdir. Xalqımızın öz müzəffər liderinə inamı və etibarı sonsuzdur.

Daha bir önəmli məsələyə toxunmaq istərdim
əssüf ki, Vətən müharibəsində qazandığımız qələbəni və uğurlu antiterror əməliyyatının həyata keçirilməsini həzm edə bilməyən qüvvələr Azərbaycana qarşı öz qərəzli mövqelərini davam etdirirlər. Avropa Şurası Parlament Assambleyasının qış sessiyasının ilk iclasında Azərbaycan nümayəndə heyətinin səsvermə hüququnun məhdudlaşdırılması ilə bağlı təşəbbüsü növbəti qarayaxma kampaniyasıdır. Dövlətimizə qarşı siyasi təzyiq rolu oynamağa çalışanlar anlamalıdılar ki, bu səylər heç bir nəticə verməyəcək. İnsan hüquqlarının pozulmasından danışan, erməni əsilli sakinlərin Qarabağdan zorakılıqla köçürülməsi kimi əsassız və gülünc iddia ilə çıxış edən AŞPA otuz ildən artıq müddət ərzində doğma yurdla-

rından silah gücünə qovulmuş həmyerlilərimizin taleyi ilə nə üçün maraqlanmırdı? Bütün bu ədalətsizliklərə göz yuman AŞPA-nın Azərbaycan tərəfindən heç bir maneə və təzyiq olmadan öz seçimləri ilə Qarabağı tərk edən erməni əsilli sakinlərin hüquqlarının pozulduğu iddiası ilə çıxış etməsi ikiüzlülük, siyasi riyakarlıq, dini və milli ayrı-seçkilikdir.

Azərbaycan bir daha öz mövqeyi və cavabı ilə heç bir təzyiqin nəticə verməyəcəyini göstərdi. Biz beynəlxalq hüquqa və prinsiplərə əsaslanan müstəqil qərarlar qəbul edirik və müstəqil siyasət yürüdürük. AŞPA-nın və təsir göstərməyə çalışan digər kənar qüvvələrin cəhdləri Azərbaycan üçün heç bir əhəmiyyət kəsb etmir. Dövlətimizə qarşı qərəzli mövqedən çıxış edən bu qüvvələr 2024-cü il fevralın 7-də birliyimizin və qətiyyətimizin şahidi olacaqlar.

**Malik Həsənov.** Parlamentimiz ötən sessiya dövründə həm qanunvericilik sahəsində, həm vətəndaş qəbulu və müraciətlərə baxılması, həm də təmsilçilik və beynəlxalq münasibətlərin inkişafı sahələrində olduqca məhsuldar fəaliyyət göstərmişdir.

Bu gün dünyada nüfuzunu, mövqeyini və müstəmləkə ərazilərini itirən Fransa Cənubi Qafqazda təsir dairələri uğrunda mübarizə aparır və bu mübarizədə başlıca alət olaraq Ermənistandan istifadə etmək istəyir. Bir daha Fransanın erməni yönümlü mövqeyini pisləyirik. Diplomatik yol da daxil olmaqla milli maraqlarımıza qarşı çıxış edən Fransaya və digər dövlətlərə qarşı mübarizə göstərməyə hazırıq.

Bizə təqdim olunmuş 2024-cü ilin yaz sessiyasının qanunvericilik işləri planı ilə tanışlıqdan aydın olur ki, bu sessiya dövründə də parlamentimizin fəaliyyəti kifayət qə-

dər məhsuldar ola bilər. Qanunvericilik işləri planından da göründüyü kimi, sessiya dövründə qanunvericilik təşəbbüsünün subyektlərindən daxil olan çoxsaylı qanun layihələri, yaxud hazırda qüvvədə olan qanunvericilik aktlarına əlavə və dəyişikliklərin edilməsi nəzərdə tutulmuşdur. Müzakirəsi gözlənilən, daha çox ictimai tələb kimi meydana çıxan əsas qanun layihələrindən biri Ali təhsil haqqında qanun layihəsidir. Bu qanun layihəsi uzun müddətdir ki, müzakirə olunur, parlamentdə bir neçə dəfə ictimai dinləmələr təşkil edilmişdir. Eyni zamanda, bir neçə sessiyanın qanunvericilik işləri planına salınmışdır. Hesab edirəm ki, artıq bu sessiya ərzində bu qanun layihəsi plenar iclasın müzakirəsinə təqdim olunmalıdır. Çünki ali təhsil sistemində çoxsaylı münasibətlərin tənzimlənməsi günün tələbidir. Hər gecikən gün ali təhsil sistemində yeni problemlər meydan çıxır. Bu da sonradan elm sahəsinə öz mənfi təsirini göstərir.

Bu il həm də ölkəmiz COP29 kimi böyük bir beynəlxalq tədbirə ev sahibliyi edəcəyindən ekoloji qanunvericilik sahəsində bir sıra təkmilləşmələrin aparılması labüddür.

**Sahib Alıyev.** AŞPA-da baş verən haqsızlıqla bağlı mövqe bildirməməyi düzgün saymadığımdan, təəssüf edirəm ki, yaz sessiyasının ilk iclasında digər həmkarlarım kimi, mən də heç də ürəkaçıcı olmayan məsələlərə toxunacam. Öncə deyim ki, bizim heyətin AŞPA-dakı bəyanatlarını tam dəstəkləyirəm, atılan addımı düzgün sayıram. Bu fikirdəyəm ki, biz 23 illik üzvlük dönəmində, bütövlükdə, Avropa Şurasında baş verənləri bir daha saf-çürük edərək indən sonra orada qalmağın milli maraqlarımıza nə dərəcədə cavab verdiyinin, o sıradan da Avropa İnsan Haqları Məhkəməsinin yurisdiksiyasının ölkəmizdə keçərli olub-olmayacağının üzərində düşünməliyik.

Sözügedən məhkəmədəkilərin də eynən AŞPA-da olanlar kimi davrandıqlarını təsdiqləyən sadəcə 2 faktı xatırlatmaq istəyirəm. Baxın, 2023-cü il sentyabrın 22-də Azərbaycan öz torpaqları üzərində suverenliyini tam təmin edəndən cəmi iki gün sonra qərəzli qərar çıxaran bu məhkəmə "Çıraqovlar və digərlərinin Ermənistana qarşı" 2005-ci ilin aprelində verilmiş iddiaları ilə bağlı ancaq 10 il sonra – 2015-ci ilin yayında hökm verdi. Özü də Minas Sarkisyan deyilən birinin bizim dövlətə qarşı qaldırdığı iddianın təmini ilə eyni gündə. Halbuki o, Çıraqovlardan düz 5 il 5 ay sonra şikayət ərizəsi göndərmişdi.

Hay girovluğunda olan Dilqəm Əsgərovla Şahbaz Quliyevin xanımları 2015-ci ildə onların adlarından sözügedən quruma şikayət göndərsələr də, dözülməz və həyatları üçün təhlükəli bir şəraitdə saxlandıqlarından işlərinə prioritet əsaslarla, yəni sürətlə baxılmalı olduğu halda, 2 ildən sonra kommunikasiyaya başlanıldı. Kommunikasiya uzağı 3 il çəkməli idi, amma düz 6 il uzadıldı, sonra isə hay girovluğunda olanların doğmalarına özlərinin işi haqda şikayət üçün etibarnamə vermədikləri kimi cəfəng bir bəhanə gətirilərək iddiaları təmin edilmədi.

Üzvlərinin dördə biri sorosçulardan ibarət, az qala yarısı heç bir təcrübəsi olmadan birbaşa Avropa İnsan Haqları Məhkəməsinə hakim təyin edilənlər düşünmək belə istəmədilər ki, girovluqda olan, məktubları yoxlanan, bəziləri isə göndərilməyən o iki nəfər iddia qaldırmaq üçün xanımlarına necə etibarnamə verə bilərdilər? Əgər Dilqəmlə Şahbaz ikinci Qarabağ savaşında qazanılmış Zəfər nəticəsində azad edilməsə idilər, Avropa İnsan Haqları Məhkəməsinə qalsaydı, indi də hay girovluğunda çürüyürdülər.

**Musa Qasımlı.** Avropa Şurası Parlament Assambleya-

sında ölkəmizə qarşı yürüdülən açıq-aşkar böhtan, qarayaxma, ədalətsiz siyasətə etiraz olaraq nümayəndə heyətimizin fəaliyyətini qeyri-müəyyən müddətə dayandırmasını yaranmış şəraitdə atılmış düzgün addım hesab edirəm. Çünki təkcə AŞPA deyil, heç bir təşkilat özünü dövlətlərin suverenliyinin fövqündə tuta və hökm dili ilə danışa bilməz. Dövlətlər olmasa, həmin təşkilatlar da yaranmaz və fəaliyyət göstərməzlər. AŞPA-nın belə davranışları özünə qarşı yönələcək, ən çox ziyanı da özü çəkəcəkdir. Hamıya aydındır ki, bu təşkilat yaradılarkən elan etdiyi dəyərləri artıq ayaq altına atıb.

Azərbaycan əleyhinə fəaliyyət göstərənlər bilməlidirlər ki, millətimiz demokratik inkişaf yolunu hər hansı xarici təsirlərin, mərkəzlərin, dövlətlərin göstərişi ilə deyil, özünün iradəsi ilə seçib. AŞPA-da ölkəmizin əleyhinə belə fəaliyyətlərin əsl səbəbi Azərbaycan dövlətinin ərazilərini bu qurumdakı bir sıra ölkələrin də müdafiə etdikləri təcavüzkar Ermənistanın işğalından azad etməsi və onu məğlub etməsi ilə bağlıdır. Azərbaycanın 44 günlük Vətən müharibəsində və lokal xarakterli antiterror tədbirləri nəticəsində təkcə təcavüzkar Ermənistanın deyil, həmin ölkələrin də üzərində qələbə qazanmasını və dövlət suverenliyini tam bərqərar etməsini bir çoxları həzm edə bilmirlər. Gələcəkdə hər hansı təşkilatda və ölkədə əleyhimizə qərar qəbul ediləcəksə, bu o deməkdir ki, Azərbaycan onları da məğlub edib.

Qəbul edilən belə qərarlar Azərbaycan və Ermənistan arasında sülhə deyil, gərginliyin yaradılmasına xidmət edir. Bundan sonra regionumuzda baş verə biləcək gərginliklərin məsuliyyəti bu təşkilatın və bənzəri fəaliyyətlər göstərənlərin üzərinə düşəcəkdir.

**Tamam Cəfərova.** Avropada və dünyadakı bəzi qərəzli

və ədalətsiz təsisatlar kimi, Avropa Şurası da Azərbaycanın qələbələrini, son zamanlar qazandığı uğurları qəbul edə bilmir. Avropa Şurasının Azərbaycan nümayəndə heyətinin etimadnaməsini qəbul etməməsi bu qurumun ölkəmizə qarşı riyakar, anti-Azərbaycan siyasətininin və köklü qərəzin növbəti dəfə təzahürüdür. Bütün dünyanı heyrətləndirən Zəfərimizi qəbul edə bilməyən və erməni lobbisinin əlaltısına çevrilmiş Qərb bu dəfə də Azərbaycan xalqını təəccübləndirmədi. Yenə də eyni teatr tamaşası, eyni ssenari, sadəcə, bu dəfə baş rolda Fransanı deyil, Almaniyanı gördük.

AŞPA-nın ortaya qoyduğu mövqedən aydın görünür ki, ya Avropa Şurası Nizamnaməsinin preambulasında qeyd olunan dəyərləri çoxdan unudub, ya da bu, sadəcə, başqa dövlətlərə təzyiq vasitəsi kimi nəzərdə tutulan söz yığınından başqa bir şey deyil. Preambulada qeyd olunur: "Ədalətə və beynəlxalq əməkdaşlığa əsaslanmış sülhün möhkəmləndirilməsinin insan cəmiyyətinin və sivilizasiyanın qorunması üçün həyati əhəmiyyət daşıdığına inanaraq" Şuranın nizamnaməsi qəbul olunub. AŞPA-nın tutduğu mövqe deməyə əsas verir ki, nizamnamədə qeyd olunan anlayışların onlar üçün heç bir əhəmiyyəti yoxdur. Əks təqdirdə, Ermənistanın yaranmış yeni reallığı qəbul etməyə başladığı bir vaxtda Fransa, Almaniya və onların əlində oyuncağa çevrilmiş Avropa Şurası ölkəmizə qarşı bu cür addım atmazdılar.

Azərbaycan Avropa Şurasına üzv olarkən əsas məqsədlərindən biri də bu idi ki, bu təşkilat işğal faktına aydın və qətiyyətli reaksiya versin, ona son qoyulması üçün Ermənistana qarşı konkret addımlar atılsın. Bu, Azərbaycanın Avropa Şurasından əsas gözləntiləri idi. Lakin faktiki olaraq bizim Avropa Şurasından gözləntilərimiz özünü doğrult-

madı. Çünki bizə qarşı ikili standartlar siyasəti davam edir. Artıq elə bir zaman gəlib çatıb ki, nə Avropa, nə də avropalı siyasətçilər üçün demokratiyanın önəmi qalmayıb.

Bu gün bir sıra beynəlxalq qurumlar, xüsusilə Avropa Şurası və Avropa İttifaqı özlərini dünyada insan hüquq və azadlıqlarının müdafiəçisi kimi göstərirlər. Görəsən, bu qurumlar otuz ilə yaxın bir dövrdə bir milyondan artıq azərbaycanlının hüquqlarının kobud şəkildə pozulmasını görmürdülərmi? Axı, hər dəfə bu qurumların nümayəndələri ölkəmizə gələndə öz doğma ata-baba ocaqlarından didərgin salınmış qaçqın və məcburi köçkünlərlə görüşür, onların yaşayış tərzləri ilə yaxından tanış olurdular.

Avropa Şurasının tutduğu mövqe, cəfəng açıqlamalar və qərəzli yanaşmaları birmənalı olaraq qəbulolunmazdır. Azərbaycanın Avropa ölkələrinin bir çoxu ilə sıx dostluq və əməkdaşlıq əlaqələri mövcuddur. Xüsusən də enerji təhlükəsizliyini təmin edərək milli təhlükəsizliyində birbaşa rol oynadığı ölkələrin münasibətləri gündən-günə dərinləşməkdədir. Bütün bu faktlar Azərbaycanın Avropa Şurasına ehtiyacı olmadığını bir daha ortaya qoyur. Azərbaycan üçün nəinki AŞPA-da səsinin dondurulması, bu qurumun özü belə heç bir əhəmiyyət kəsb etmir. AŞPA-nın hazırkı qərarının insan hüquqları ilə heç bir əlaqəsi yoxdur. Qəbul olunmuş qərar öz suverenliyini və ərazi bütövlüyünü bərpa etmiş Azərbaycana qarşı qisas cəhdidir. Azərbaycana qarşı istər diplomatik arenada, istərsə də hərb meydanında qisas cəhdi edənlərin aqibəti isə bəllidir. Bir daha vurğulamaq lazımdır ki, Avropa Şurası kimi erməni lobbisinin, Fransanın, Almaniyanın əlaltısına çevrilmiş, gündən-günə nüfuzunu daha da itirən bir qurumda təmsil olunmaq Azərbaycana nə lazımdır, nə də maraqlıdır.

# MÜNDƏRİCAT

1 fevral 2024-cü il.................................................................. 3
Edilməmiş çıxışların mətnləri............................................... 87

Altıncı çağırış

# AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİ İCLASLARININ

# PROTOKOLLARI VƏ STENOQRAMLARI

On beşnci sessiya
Yaz

60-cı cild

1 fevral 2024-cü il

Buraxılışına məsul
***H. Babayev***

Azərbaycan Respublikasi Milli Məclisinin mətbəəsi.
Bakı, Azad Mirzəyev küçəsi, 235.
Format 60x84 1/16. Çap vərəqi 6,0. Sifariş 50. Tiraj 150.